QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 094 (5814) **24 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib



Səh 3

## Prezident Salome Zurabişvili Azərbaycan-Gürcüstan sərhədlərinin delimitasiyası prosesinin bərpasını alqışlayır

Bax 9

*Gürcüstan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası prosesinin uzun illərdən sonra bərpa olunmasını alqışlayıram. AZƏRTAC xəbər verir ki, bu fikri Gürcüstan Prezidenti Salome Zurabişvili özünün "Facebook" səhifəsində yazıb. Gürcüstan dövlətinin başçısı bu məsələni Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə də müzakirə etdiyini xatırladıb. "Əminəm ki, tərəflər...*

## İsrailin İ24 xəbər telekanalı: Dağlıq Qarabağ Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış ərazisidir

Bax 11

*Azərbaycan Odlar Diyarıdır. Bu od, həm çoxlarının qəlbinə hərarət verir, həm də ərazilərinin Ermənistan tərəfindən işğal edilməsindən zərər çəkmiş Azərbaycan xalqının tarixinə işıq saçır. AZƏRTAC xəbər verir ki, israilli jurnalist Daniel Tsemax İsrailin nüfuzlu İ24 telekanalında nümayiş etdirilmiş süjetində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiki vəziyyəti...*

## Paşinyan əleyhinə "Qarabağ" toplantısı keçirilib

Bax 12

*Ermənistanda iş adamlarından birinin evində bu günlərdə Dağlıq Qarabağın keçmiş hərbi dairələrinin nümayəndələrinin və Ermənistanın oliqarxlarının görüşü keçirilib və görüş əsnasında ölkədəki daxili siyasi vəziyyət müzakirə edilib. SİA-nın məlumatına görə bu barədə rusarminfo.ru saytı "Jamanak" qəzetinə istinadən məlumat dərc edib. "Jamanak" qəzeti yazır ki, yığıncaq Dağlıq Qarabağın eks müdafiə naziri Samvel Karapetyan tərəfindən təşkil olunub...*

## "Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir"



2

## Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin sərgisi açılıb



4

## Naxçıvan Ali Məclisində təltiflərin təqdimatı olub



6

## Dünyanın bir sıra aparıcı KİV-ləri UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyununa dair məqalələr yayıb



7

## Baş nazir: Gürcüstan-Azərbaycan sərhədi ilə bağlı məsələ dostluq münasibətlərimizin ruhuna uyğun həll olunacaq



6

## "Bu qüvvələr köhnə üsullarla ara qatmağa, ürək bulandırmağa çalışırlar"



9

7

## The Associated Press: Mxitaryanın Bakıya səfər etməmək barədə qərarı əsassızdır




7

## Müdafiə Nazirliyi: Armen Qriqoryanın səsləndirdiyi sərsəm fikirlər gülünc doğurur



14

## "Amnesty İnternational" - qərəzlilik mərəzliyi

AMNESTY INTERNATIONAL

# "Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir"

*Prezident İlham Əliyev Çinin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



## Rəsmi xronika

Prezident İlham Əliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Mühasibat uçotu haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1552-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1565-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Çin Xalq Respublikasının Xarici İşlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Çində keçirilən ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Forumuna dəvətə görə Çin tərəfinə minnətdarlığını bildirərək, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Forumun uğurla keçirilməsi və bu mötəbər beynəlxalq tədbirdə qəbul olunan qərarlar münasibətilə təbriklərini çatdırdı. Dövlətimizin başçısı, eyni zamanda, Çin Xalq Respublikasının Sədri Si Cinpinin 28 May - Respublika Günü münasibətilə təbrik məktubunu göndərməsi ilə bağlı minnətdarlığını çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev bildirdi ki, Çinə son səfəri zamanı Çin Prezidenti ilə keçirilən görüşlər və aparılan səmərəli müzakirələr əlaqələrimizin strateji xarakter daşıdığını bir daha təsdiq etdi. Dövlətimizin başçısı Çin Xalq Respublikasının Xarici İşlər nazirinin ölkəmizə səfərinin Azərbaycan ilə Çin arasında əməkdaşlığın çox yüksək səviyyədə olmasını nümayiş etdirdiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir. İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu və iqtisadi-ticari sahədə əməkdaşlığımızın yaxşı perspektivlərə malik olduğunu qeyd etdi. Prezident İlham Əliyev bir daha Çin Xalq Respublikasına səfərini xatırlayaraq, orada Çinin aparıcı şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərin ölkələrimiz arasında ticarət, investisiya sahələrində və digər sahələrdə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Asiya və Avropa arasında vacib tranzit məntəqəsinə çevrilib və nəqliyyat sahəsinin inkişaf etdirilməsi ölkəmizin prioritetlərindən biridir. Prezident İlham Əliyev dedi ki, Azərbaycan "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri olub və ölkəmizin nəqliyyat infrastrukturundan bu layihə çərçivəsində nəqliyyat daşımaları üçün istifadə edilə bilər.

Xarici İşlər naziri Van Yi Çin Xalq Respublikasının Sədri və onun qeyd etdiyi kimi, Prezident İlham Əliyevin dostu Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edərək, Bakının dünyada məşhur şəhər olduğunu və ilk saatlardan paytaxtımızın gözəlliyinin dərin təəssürat bağışladığını dedi. O bildirdi ki, Çin-Azərbaycan əlaqələri strateji xarakter daşıyır və ölkəsi Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Van Yi qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi və sosial sabitlik təmin olunub, ölkəmiz iqtisadi baxımdan davamlı inkişaf edir, əhalinin rifah halı ardıcıl surətdə yüksəlir, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daim artır və möhkəmlənir. Ölkəmizin uğurlarının Çində maraqla izlənildiyini bildirən qonaq əldə olunan bu nailiyyətlər və eyni zamanda, qarşıdan gələn 28 May - Respublika Günü münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycan və Çin arasında əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı, nəqliyyat, enerji, sənaye, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi aparıldı.

# "Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkədir"

*Prezident İlham Əliyev Almaniya Bundestaqının nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin regionlardan başlamasının qonaqların Azərbaycan haqqında daha geniş məlumata malik olmaları üçün yaxşı imkan yaratdığını bildirdi. İkitərəfli münasibətlərə toxunan Prezident İlham Əliyev Almaniya Kansleri Angela Merkelin Azərbaycana ilk səfərini xatırlayaraq, bunu əlaqələrimizin inkişafında tarixi hadisə kimi dəyərləndirdi və səfərin çox uğurla keçdiyini qeyd etdi. Eyni zamanda, Prezident İlham Əliyev özünün də Almaniyaya səfərlərinin münasibətlərimizin möhkəmləndirilməsinə töhfə verdiyini bildirdi. Dövlətimizin başçısı əməkdaşlığımızın çox yüksək səviyyədə və yaxşı perspektivlərə malik olduğunu dedi. Prezident İlham Əliyev ölkələrimizin biznes dairələri arasında da əlaqələrin uğurla inkişaf etdiyini, ölkəmizdə xeyli sayda Almaniya şirkətlərinin müxtəlif layihələrdə iştirakının önəmini vurğuladı. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafı baxımından rolunu qeyd etdi.



Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars paytaxt Bakının və ölkəmizin regionlarının onlarda böyük təəssürat yaratdığını dedi, həmçinin Qəbələyə səfərləri zamanı məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərlə tanış olduqlarını bildirdi. Yohannes Kars Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə olduğunu xüsusi vurğuladı.

Görüşdə parlamentlərarası əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm əhəmiyyət daşıdığı bildirildi, Azərbaycan və Almaniya arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

***Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.***

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı. Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müqəddəs "Qurani-Kərim"in nazil olduğu, on bir ayın sultanı mübarək Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirib.

Mərasimdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Melih Yevdayev, Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış ediblər. Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. Sonra iftar süfrəsi açılıb.







# "Almaniya Azərbaycanın Avropada ən önəmli siyasi-iqtisadi tərəfdaşlarındandır"

## *Yohannes Kars: Azərbaycanın həm paytaxtı, həm də bölgələri sürətlə inkişaf edir*



Dünən Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Milli Məclisin sədri Oqtay Əsədov bu səfərin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətli olacağına inamını ifadə edib. Bildirib ki, Azərbaycan tərəfi dostluq qruplarının qarşılıqlı səfərlərini yüksək qiymətləndirir.

Ölkələrimiz arasındakı münasibətlərin zəngin tarixindən danışan Oqtay Əsədov deyib ki, 2016-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" Sərəncam imzalayıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra münasibətlərimiz yeni məna kəsb edib. Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynayır. Bu günədək Azərbaycanla Almaniya arasında 77 hüquqi sənəd imzalanıb, 14 sənəd isə baxılmaqdadır.

Qeyd olunub ki, iqtisadi sahədə də münasibətlərimiz yüksələn xətlə inkişaf edir. Almaniya Azərbaycanın Avropada ən önəmli siyasi-iqtisadi tərəfdaşlarındandır. Azərbaycan təşəbbüskarı və fəal iştirakçısı olduğu qlobal neft və qaz kəmərləri ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında qətiyyətli mövqe nümayiş etdirir. Ölkəmiz Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının iştirakçısıdır.

Oqtay Əsədov Almaniya Bundestaqında və Milli Məclisdə parlamentlərarası əlaqələr üzrə qrupların fəaliyyət göstərməsinin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Dağlıq Qarabağ münaqişəsindən söz açan parlament sədri bildirib ki, münaqişənin tezliklə beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həlli regionun iqtisadi tərəqqisinə böyük təkan verərdi.

Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars ölkəmizə səfərindən və keçirdikləri görüşlərdən məmnun qaldıqlarını qeyd edib. Bildirib ki, o, ölkəmizdə ilk dəfə 1999-cu ildə olub. Budəfəki səfərində müstəqil Azərbaycanın bölgələrinin və paytaxt Bakının sürətlə inkişaf etdiyini müşahidə edib. Bütün bunlar Azərbaycanın dostu kimi onları da sevindirir. Yohannes Kars qeyd edib ki, Bundestaqla Milli Məclis arasında əməkdaşlığın genişlənməsi ümumi məqsədlərə xidmət edir. Qarşıya qoyulan hədəflərə çatmaq üçün parlament diplomatiyası əhəmiyyətli rol oynayır.

# Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin sərgisi açılıb

***Mayın 22-də Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin "Mümkün ölçülər" (Possible Dimensions) adlı sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, Moskva Müasir İncəsənət Muzeyi və Rusiya Rəssamlıq Akademiyası ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə müəllifin 85 illik yubileyinə həsr olunmuş sərgilər silsiləsinin davamıdır. Sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.***









Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxış edərək sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Heydər Əliyev Mərkəzində Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Seretelinin sərgisinin təşkili əlamətdar hadisələrdəndir. Görkəmli rəssamla Heydər Əliyev Fondunu və Heydər Əliyev Mərkəzini uzun illərdir dostluq və əməkdaşlıq əlaqələrinin bağladığını deyən Anar Ələkbərov, bu günədək rəssamla bir neçə layihənin həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə görkəmli rəssamın "Dostluq" ordeninə layiq görüldüyünü deyən Anar Ələkbərov, onu bu münasibətlə təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev deyib ki, dünya şöhrətli rəssam Zurab Seretelinin əsərlərindən ibarət sərginin Bakıda təqdim olunması paytaxtımızın mədəni həyatında mühüm hadisələrdən biridir. Qeyd edilib ki, Heydər Əliyev Fondu mütəmadi olaraq belə sərgilər təşkil etməklə, ölkəmizin mədəniyyətinin təbliği istiqamətində də çoxsaylı layihələr həyata keçirir, uğurlu addımlar atır. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə görkəmli rəssamın əsərlərinin ilk dəfə ölkəmizdə sərgilənməsi münasibətilə onu təbrik edən nazir, rəssama bundan sonrakı yaradıcılığında uğurlar arzulayıb. Sonra Əbülfəs Qarayev Zurab Sereteliyə "Dostluq" ordenini təqdim edib.

Zurab Sereteli çıxış edərək sərginin təşkilində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkür edib. Prezident İlham Əliyev tərəfindən Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə "Dostluq" ordeni ilə təltif edilməsini sevinc hissi ilə qarşıladığını deyən rəssam, indiyədək belə dəyərli mükafata sahib olmadığını da etiraf edib. O, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirib.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Ömər Eldarov Zurab Seretelinin yaradıcılığı haqqında məlumat verib. Onun istər sovetlər dönəmində, istərsə də müasir dövrdə sənət fəaliyyətindən söz açan Ö.Eldarov, rəssamın yaradıcılığının bənzərsizliyi haqqında danışıb, onu təbrik edib. Sonra qonaqlar sərgi ilə tanış olublar. Ekspozisiyada Moskva, Tbilisi və Londondan gətirilmiş 30-dan çox rəsm əsəri və heykəl nümayiş olunur.

Zurab Sereteli 1934-cü ildə Tbilisidə anadan olub. 1958-ci ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasını bitirib. 1960-cı illərin sonlarında geniş dairədə tanınmağa, dövlət sifarişləri almağa başlayıb. Monumentallıq onun müxtəlif ölkələrdə ictimai sifarişlər əsasında yaratdığı heykəllərdə də diqqəti çəkir. Seretelinin müəllifi olduğu möhtəşəm heykəllər London, Moskva, Nyu-York, Paris, Roma, Tokio və digər şəhərlərdə ucaldılıb.

Seretelini dünya vətəndaşı adlandırmaq olar. Onun emalatxanaları doğulduğu Tbilisi şəhərində, Moskva, Paris və Nyu-Yorkda yerləşir. Bu dörd şəhərin hər birində işləmək onun fərdi üslubunun formalaşmasına səbəb olub. Fransada Pablo Pikasso və Mark Şaqalla görüşü onun yaradıcılıq prosesinə baxışlarını köklü surətdə dəyişib. Ustadların rəssamlıq və qrafikadan keramika və heykəltəraşlığa asanlıqla keçmələri onu yeni əsərlər seriyası yaratmağa ilhamlandırıb. Parisdə Pikassonun emalatxanasını ziyarət etdikdən sonra çəkdiyi "İnessa" (1968) əsərində fransız rəssamın təsiri aydın nəzərə çarpır. Seretelinin "Mənim sevimli rəssamlarım" (2009) adlı məşhur heykəli Pablo Pikasso, Amedeo Modilyani, Mark Şaqal və Vinsent Van Qoqu təsvir edir. Bundan bir il əvvəl isə o, Niko Pirosmani və Anri Russonun heykəltəraşlıq obrazlarını yaratmışdı.



Zurab Seretelinin yaradıcılığına rus rəssamları da təsir göstərib. Vasili Kandinskinin abstrakt ekspressionizmi və ya Kazimir Maleviçin suprematizmi Seretelinin qırmızı və göy boyalarının zəngin palitrasına transformasiya edib. Heydər Əliyev Mərkəzində nümayiş olunan sərgi avqustun 25-dək davam edəcək.

# Bakıda I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi keçirilir

*Konqres Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunub*

***Mayın 22-də Bakıda Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunmuş I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.***



Səhiyyə Nazirliyinin, Heydər Əliyev Fondunun, Talassemiya Mərkəzinin və Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən konqresin açılışında çıxış edən Talassemiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 ili tamam olur. Talassemiya Mərkəzi Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilib. 2009-cu ildən istifadəyə verilən mərkəzin bu xəstəliyə düçar olan şəxslərin müalicəsində mühüm rol oynadığı diqqətə çatdırılıb. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı dövlət proqramları və sərəncamlar əsasında ötən müddətdə Talassemiya Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində geniş işlər həyata keçirilib.



Mərkəzin icraçı direktoru bildirib ki, Prezident İlham Əliyevin 2018-ci ilin noyabrında "Talassemiya Mərkəzinin Yeni Nəsil Sekvenləşdirmə laboratoriyaları ilə təchiz olunmasına dair" imzaladığı Sərəncam çərçivəsində artıq müasir avadanlıqlar alınıb və yaxın zamanda mərkəzdə bu cihazların quraşdırılması prosesi başa çatacaq. Bununla da Talassemiya Mərkəzi nəinki ölkəmizin, eləcə də regionun ən müasir genetik diaqnostika mərkəzi olacaq və genetik diaqnostika üçün respublikamızın hüdudlarından kənara müraciət etməyə ehtiyac qalmayacaq.

Profili və genetik diaqnostika imkanları üzrə regionda xüsusi yeri olan Talassemiya Mərkəzi elmi araşdırma və hematoloji xəstəliklərlə mübarizə sahəsində əlaqələri artırmaq məqsədilə bir sıra ölkələrlə iş birliyinə başlayıb. Beynəlxalq əlaqələr çərçivəsində xarici ölkələrin aparıcı mütəxəssislərinin Talassemiya Mərkəzinə səfərləri, birgə elmi toplantılar, elmi-praktik seminarlar, eləcə də yerli mütəxəssislərin müasir mərkəzlərdə uzunmüddətli kursları təşkil edilir.

Valeh Hüseynov görülən işlərin hematoloji xidmətin müxtəlif sahələrinin inkişafına ciddi təkan verdiyini diqqətə çatdırıb. Bildirib ki, qarşılıqlı səfərlər dünyanın müxtəlif ölkələrindən olan elm adamları ilə iş birliyi və təcrübə mübadiləsi baxımından müvəffəqiyyətli keçib, ölkəmizdə hematologiya sahəsinin inkişafı baxımından hematoloqları birləşdirəcək elmi cəmiyyətin qurulmasını və mütəmadi elmi konqreslərin təşkil olunmasını zəruri edib. Bu baxımdan Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin ölkəmizin hematologiya sahəsində çalışan mütəxəssislərini bir araya toplayacağına, I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresinin bu baxımdan əhəmiyyətli rol oynayacağına əminlik ifadə olunub.

V.Hüseynov Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2005-ci ildən həyata keçirilən "Talassemiyasız həyat naminə" layihəsi barədə məlumat verib. Qeyd olunub ki, layihənin məqsədi həm mövcud xəstələrin keyfiyyətli müalicə almasını təşkil etmək, həm də bu sahədə maarifləndirmə işini aparmaqdır.

Talassemiya Mərkəzinin Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə birgə bu il ərzində ölkənin müxtəlif regionlarında - Mingəçevir, Qax, Şirvan, Lənkəran, Quba, Bərdə və Gəncə şəhərlərində "Talassemiyasız həyat naminə" devizi ilə 7 elmi simpozium keçirdiyi bildirilib. Qeyd olunub ki, regional simpoziumlar çərçivəsində talassemiya daşıyıcılığının müəyyən olunması məqsədilə ödənişsiz tibbi müayinələr həyata keçirilib. Müraciət edənlərdən götürülmüş qan nümunələri Talassemiya Mərkəzində müayinədən keçirilib. Regionların ardından sonuncu - 8-ci simpozium isə I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi çərçivəsində mayın 25-də təşkil olunacaq.



Konqresin birinci günü Azərbaycanda ilk dəfə "Axın sitometriyası və sitogenetika" kursu keçirilib. Konqres çərçivəsində, həmçinin ölkəmizdə ilk dəfə olaraq "Tibb bacıları simpoziumu" təşkil olunacaq. Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov ölkəmizdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinin ənənə halını aldığını bildirib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyə sahəsinə daim diqqət yetirdiyini deyən komitə sədri irsi qan xəstəlikləri ilə mübarizədə görülən işlərdən, qəbul olunan dövlət proqramlarından danışıb. O, nikahdan əvvəl icbari müayinənin irsi qan xəstəliklərinin azalmasında rol oynadığını diqqətə çatdırıb. Komitə sədri gələn il yanvarın 1-dən ölkə ərazisində tətbiq olunacaq icbari tibbi sığortanın bu xəstəliklərin müalicəsinə töhfə verəcəyini vurğulayıb. Ə.Əmiraslanov hematologiya sahəsində gen səviyyəsində elmi tədqiqatlar aparıldığını, genişmiqyaslı proqram hazırlandığını qeyd edib.

Beynəlxalq Talassemiya Federasiyasının sədr müavini Maykl Anqastiniotis, Türk Elmlər Akademiyası - TÜBA-nın təmsilçisi Taner Demirer, Türk Hematologiya Dərnəyinin sədri Hayri Özsan, Koç Universiteti Xəstəxanasının professoru Burhan Fərhanoğlu çıxış edərək Azərbaycanda qan xəstəlikləri ilə mübarizədə həyata keçirilən tədbirləri yüksək qiymətləndiriblər. Tədbirin klinik araşdırmalarda son nailiyyətləri izləmək baxımından böyük imkan yaratdığını bildirən mütəxəssislər konqresin işinə uğurlar arzulayıblar.

Konqresin elmi katibi Ramin Bayramlı çıxış edərək tədbir barədə məlumat verib. O, konqresdə 22 ölkədən 939 nəfərin iştirak etdiyini və 146 məruzə təqdim edildiyini bildirib. Sonra panel iclaslar keçirilib və məruzələr dinlənilib. Konqres mayın 25-dək bölmə iclasları ilə davam edəcək.





# Naxçıvan Ali Məclisində təltiflərin təqdimatı olub

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il mayın 16-da “Duzdağ” Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb, Tədbirlər Planı təsdiq edilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Duzdağ” Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: Naxçıvan Muxtar Respublikasının həyatında “Duzdağ” Fizioterapiya Mərkəzinin xüsusi rolu vardır. Ötən 40 ildə mərkəz uğurla fəaliyyət göstərmiş, kollektiv formalaşmışdır. Sovetlər Birliyi dövründə şəraitin olmaması həm müalicə alan xəstələr, həm də kollektiv üçün çətinliklər yaradırdı. Lakin müstəqillik illərində “Duzdağ” Fizioterapiya Mərkəzi yenidən qurularaq müasir səhiyyə müəssisəsinə çevrilmişdir. 50 çarpayı ilə fəaliyyətə başlayan mərkəzdə hazırda 500-ə yaxın xəstə eyni vaxtda müalicə alır. Hər il 4 minə yaxın insan mərkəzə müraciət edir. Vaxtilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olan mərkəz bu gün publik hüquqi şəxs kimi fəaliyyət göstərir. Kollektiv işini düzgün qurmuş, “Duzdağ” Fizioterapiya Mərkəzi muxtar respublikanın brendinə çevrilmişdir.

Ali Məclisin Sədri deyib: “Duzdağ” Fizioterapiya Mərkəzi bu gün muxtar respublikanın tanıdılması və təbliğində mühüm rola malikdir. Çünki təbii sərvətimiz olan duzdan həm məişətimizdə geniş istifadə olunur, həm də duz şaxtalarında yaradılmış səhiyyə müəssisəsi insanlara şəfa verir. Dünyanın müxtəlif ölkələrindən mərkəzə müraciət edən insanlar hərtərəfli müalicə almaqla yanaşı, eyni zamanda, Naxçıvanı da təbliğ edirlər. Bu da turizmin inkişafına töhfədir. Ölkələr adətən turizmin bir sahəsi üzrə ixtisaslaşırlar. Lakin bu gün Naxçıvan Muxtar Respublikasında turizmin müxtəlif növləri, o cümlədən sağlamlıq turizmi inkişaf edir. Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin inşası başa çatdıqdan sonra isə bu sahədə imkanlar daha da genişlənəcəkdir. Ona görə də təbii sərvətlərimizdən səmərəli istifadə edilməli, onlar elmi şəkildə öyrənilməli və gələcək nəsillərə çatdırılmalıdır.

Ali Məclisin Sədri deyib: Qurmaq, yaratmaq işin bir tərəfidir. Əsas məsələ isə qurulanları qoruyub saxlamaq və onlardan səmərəli istifadə etməkdir. Muxtar respublikada sağlamlıq turizminin inkişafı və mövcud potensialın tanıdılması sahəsində ardıcıl tədbirlər görülmüş, internet saytları yaradılmış, bukletlər hazırlanmış və turların təşkilinə başlanılmışdır. “Duzdağ” Fizioterapiya Mərkəzinin elmi şəkildə araşdırılması da buranın tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə bundan sonra da Naxçıvan duzunun müalicəvi əhəmiyyəti ilə bağlı elmi-tədqiqat işlərini davam etdirməsi və kitabların nəşr olunması tapşırılmışdır.

Ali Məclisin Sədri Naxçıvan duzunun müalicəvi əhəmiyyəti ilə bağlı apardığı səmərəli tədqiqat işlərinə görə Azərbaycan Tibb Universitetinin “Klinik allerqologiya və immunologiya” kafedrasının müdiri, tibb elmləri doktoru, professor Lalə Allahverdiyevaya təşəkkür edib.

Qeyd olunub ki, “Duzdağ” Fizioterapiya Mərkəzinin gələcəkdə uğurla fəaliyyət göstərməsi bu gün işin düzgün qurulmasından asılıdır. Ona görə də kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və mərkəz bütün dünyada tanıdılmalıdır. Dünyanın bir çox ölkəsində duz şaxtalarından müalicə kimi istifadə olunur. Lakin “Duzdağ” Fizioterapiya Mərkəzinin dəniz səviyyəsindən 1100 metr yüksəklikdə yerləşməsi və təbii havalanma xəstələrdə sağalma faizinin yüksək olması ilə nəticələnir. Mərkəzdə müalicə alan xarici ölkə vətəndaşlarının təəssüratları da bunu bir daha təsdiq edir.

Ali Məclisin Sədri mərkəzin fəaliyyətinin genişləndirilməsinin daim diqqətdə saxlanılacağını bildirib, yubiley münasibətilə kollektivi təbrik edib və işlərində uğurlar arzulayıb.

Sonra təltiflər təqdim edilib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 22 may tarixli Sərəncamına əsasən “Duzdağ” Fizioterapiya Mərkəzinin əməkdaşlarından 1-i “Əməkdar həkim”, 2-si “Əməkdar tibb işçisi”, 3-ü “Rəşadətli əməyə görə” nişanı, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva isə “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif olunub.

Ali Məclisin Sədri fəxri adları və nişanları təqdim edib. Təltif olunanlardan Darçın Eyvazova, Leyla Vəliyeva, Təranə Əliyeva, Sevda Həsənova və Zəminə İbrahimova minnətdarlıq edərək deyiblər ki, “Duzdağ” Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin qeyd olunması əlamətdar hadisədir. Bu münasibətlə təltif olunmağımız isə məsuliyyətimizi ikiqat artırır. Təltif olunanlar göstərilən etimadı layiqincə doğruldacaqlarına söz veriblər.

Tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva əməyinə verilən yüksək qiymətə görə Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti adından Ali Məclis Sədrinə minnətdarlıq edərək deyib: “Dünyanın müxtəlif ölkələrində, o cümlədən ABŞ və Sinqapurda “Duzdağ” Fizioterapiya Mərkəzi haqqındakı məruzələrim böyük maraqla qarşılanıb. Çünki “Duzdağ” Fizioterapiya Mərkəzi dünyada unikal və analoqu olmayan sağlamlıq müəssisəsidir. Burada müalicə olunan xəstələrdə yüksək nəticə alınır”. Lalə Allahverdiyeva Naxçıvan duzunun müalicəvi əhəmiyyəti ilə bağlı tədqiqat işlərini davam etdirəcəyini bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

## AZƏRTAC “China Daily” qəzetinin fəxri media tərəfdaşı mükafatına layiq görülüb




Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC Çinin ingilis dilində nəşr olunan nüfuzlu gündəlik “China Daily” qəzetinin mükafatına layiq görülüb.

“China Daily” qəzeti ilə son bir ili əhatə edən sıx əməkdaşlığına, iki ölkə arasında informasiya mübadiləsindəki fəallığına, qəzetin həyata keçirdiyi layihələrdə fəal iştirakına görə AZƏRTAC-a “Fəxri beynəlxalq media tərəfdaşı-2019” mükafatı təqdim olunub.

Qeyd edək ki, ümumilikdə, 100 milyondan çox çap və onlayn abunəçisi olan “China Daily” təkcə Çində deyil, regionda, eləcə də dünyada ingilis dilində nəşr edilən ən nüfuzlu qəzetlərdən biridir. Ümumi tirajı bir milyon nüsxə olan qəzetin xarici ölkələrdəki oxucularının sayı yerli oxuculardan daha çoxdur. Bu da qəzetin qlobal səviyyəli nəşr olduğunun göstəricisidir.

## Natali Qule: “İdman sülhün möhkəmlənməsi üçün məkan olmalıdır”



İdman sülhün möhkəmlənməsi üçün məkan olmalıdır. AZƏRTAC xəbər verir ki, bu fikri erməni futbolçu Henrix Mxitaryanın Bakıya səfərdən imtina etməsini şərh edən Fransa Senatının Xarici məsələlər komitəsinin sədr müavini Natali Qule deyib. O, belə bir hala yol verilməsinin təəssüf doğurduğunu bildirib. Natali Qule qeyd edib ki, 2015 -ci ildə Ermənistan nümayəndə heyəti Bakıda keçirilən Avropa Oyunlarına gəliblər. Prezident İlham Əliyev erməni idmançıya medal təqdim edib və onu fitə basanları sakitləşdirərək alqışlamaların dəstəkləyib. “Düşünürəm ki, vətəndaş cəmiyyəti sülhün yaradılmasında iştirak etməlidir. Bu dəfə bu imkan səfərdən imtina ilə buraxılmış oldu”, - deyə o əlavə edib.

## Baş nazir: Gürcüstan-Azərbaycan sərhədi ilə bağlı məsələ dostluq münasibətlərimizin ruhuna uyğun həll olunacaq



Əminəm ki, Gürcüstan-Azərbaycan sərhədi ilə bağlı bütün məsələlər iki ölkə arasındakı strateji tərəfdaşlıq və dostluq münasibətlərinin ruhuna uyğun həll olunacaq. AZƏRTAC xəbər verir ki, bu fikirləri Gürcüstanın Baş naziri Mamuka Baxtadze mayın 23-də keçirdiyi brifinqdə söyləyib. Hökumət başçısının sözlərinə görə, tərəflər yeni komissiyalar yaratmaq və işə başlamaq barədə qərar qəbul ediblər. Amma bu, çox zəhmət tələb edən məsələdir və hər bir nüans xüsusi diqqət tələb edir.

# Dünyanın bir sıra aparıcı KİV-ləri UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyununa dair məqalələr yayıb


PREMIER LEAGUE | CHAMPIONSHIP | SCOTTISH PREMIERSHIP | EUROPEAN TEAMS

Arsenal news: Potential Henrikh Mkhitaryan replacement trains hard ahead of Chelsea clash

ARSENAL will be without Henrikh Mkhitaryan when they face Chelsea in the Europa League final, but the Gunners have several other options to choose from.

SHARE | TWEET

Arsenal players train for Europa League final against Chelsea

Arsenal have reluctantly opted to leave the winger at home, writing on Twitter: "We're very disappointed to announce @HenrikhMkh will not be travelling with the squad for our #UELfinal against Chelsea."

While the decision is a blow to Mkhitaryan, several of his Gunners team-mates could benefit and earn a spot in the starting XI against the Blues.

Unai Emery's men have been working hard on the training pitch ahead of their trip to Baku, with the majority of the squad present at London Colney on Tuesday.

PROMOTED STORY

Play this for 1 minute and see why everyone is addicted!

The Most Beautiful Balcony Views in the World

NAVIGATOR

Most read in Football

1 Pep Guardiola 'agrees' IMMEDIATE Man City exit as Juventus announcement date claim made

2 Man Utd transfer news LIVE: Ed Woodward wields AXE, Jadon Sancho

***Dünyanın bir sıra aparıcı KİV-ləri, o cümlədən "The New York Times", "The Associated Press", "Reuters", "express.co.uk", "goal.com", "tribalfootball.com" və digər qəzet, agentlik və saytlar UEFA Avropa Liqasının mayın 29-da Bakıda "Arsenal" ilə "Çelsi" arasında keçiriləcək final oyununa dair məqalələr yayıb.***


The New York Times

UEFA Defends Baku Europa League Final After Arsenal Letter

By Reuters

May 17, 2019

(Reuters) - UEFA have defended their decision to stage the Europa League final in Baku following a letter from finalists Arsenal, who sought an explanation from European soccer's governing body because of the inconvenience caused to their travelling fans.

Arsenal face Chelsea at Azerbaijan's Baku Olympic Stadium on May 29 with supporters struggling to secure flights for the near 6,000-mile round trip as well as accommodation ahead of the club's first European final in 13 years.

"UEFA has committed to appoint hosts only via a fair and transparent bidding process where the candidates have to provide evidence of their ability to stage the event on the basis of a number of criteria," UEFA competitions director Giorgio Marchetti said in a statement.

"The bidding process for a club competition final is held a couple of years in advance, meaning that the exact circumstances in which the final will have to be organised cannot be known at the time of the appointment."

"The Associated Press" agentlinin yaydığı və "The New York Times" qəzetində də dərc edilən məqalədə Böyük Britaniyanın "Arsenal" klubunun yarımmüdafiəçisi Henrix Mxitaryanın Avropa Liqasının finalında iştirak etmək üçün Bakıya səfər etməyəcəyi və bunu Ermənistan ilə Azərbaycan arasında mövcud olan gərgin münasibətlərlə əlaqələndirdiyi bildirilir. Yazıda UEFA-nın Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) tərəfindən bütün futbolçuların, o cümlədən "Arsenal"ın oyunçusu H.Mxitaryanın şəxsi təhlükəsizliyi üçün hər cür zəmanətlə təmin olunduğu və hətta "Arsenal" komandasına bununla bağlı kompleks təhlükəsizlik planının da təqdim edildiyi bildirilir. Azərbaycan hökumətinin əvvəlcədən Mxitaryanın mayın 29-da keçiriləcək final qarşılaşmasında oynamasına şərait yaradacağını bildirdiyi qeyd olunur.

"Henrix Mxitaryanın UEFA Avropa Liqasının mayın 29-da "Çelsi" ilə keçiriləcək final oyununda iştirak etmək üçün Bakıya səfər etməmək barədə qərarı əsassızdır və Azərbaycan tərəfinin verdiyi zəmanətin ciddiliyini şübhə altına almaq üçün heç bir səbəb yoxdur", - deyə məqalədə AFFA-nın yaydığı açıqlamaya istinadən bildirilir.

Yazıda Azərbaycanın gənclər və idman naziri Azad Rəhimovun sözləri də sitat gətirilir: "Biz hər zaman idmanı bütün bu siyasi məsələlərdən kənarda saxlamışıq".

Məqalədə, həmçinin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanın Mxitaryanın təhlükəsizliyinə zəmanət verməməsi ilə bağlı iddialarına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevanın bu məsələyə dair açıqlamasına da yer verilib: "Ermənistan Xarici İşlər Nazirliyinin "Arsenal" futbol klubunun erməni əsilli oyunçusunun Bakıya səfər etməməsi ilə bağlı açıqlaması bu ölkənin daxili siyasi problemləri səbəbindən idmanı siyasət alətinə çevirmək cəhdlərindən xəbər verir. Ermənistan XİN-in belə bir oyunda iştirak etməsi yalnız təəssüf doğurur".

"Glonaabot.com" internet portalında dərc olunan məqalədə ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Mətyu Brayzənin UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" komandaları arasında keçiriləcək final oyununa ev sahibliyi edəcək Bakı şəhərinin təhlükəsiz şəhər olması barədə fikirləri yer alıb. Məqalədə səfirin sözlərindən sitat gətirilib: "Bu oyun Bakının necə gözəl şəhər, həmçinin yaşamaq üçün möhtəşəm bir məkan olduğunu bütün avropalılara və dünyaya nümayiş etdirmək baxımından çox gözəl bir imkandır".

İdman xəbərləri üzrə ixtisaslaşmış "Goal.com" portalında


TRIBAL FOOTBALL
NEWS LEAGUES CLUBS TRANSFERS OPINION WORLD CUP 2018

Arsenal

UEFA warn Arsenal fans about Mkhitaryan protest

UEFA is warning Arsenal fans against staging any protests regarding the Henrikh Mkhitaryan situation.

The Armenian attacker is not traveling with the Gunners for the Europa League final against Chelsea.

It is due to the fact the final is taking place in Azerbaijan, given there are many tensions and travel restrictions between the two countries.

However, UEFA officials will be eager to stamp out any protests from Gunners supporters who are attending the final in Baku, per The Mirror.

UEFA has a history of fining clubs if they are unhappy at supporter protests in the stadium.

For instance, Legia Warsaw were fined after their fans had a banner with a UEFA badge, a big dressed in

POPULAR STORIES

Zidane angry with Real Madrid president Perez...

REVEALED: Release clause for Liverpool...

Man Utd stunned as De Gea rejects latest new...

Blades success: Why Henderson ready to replace...

REVEALED: Man Utd speaking with Dybala for past...

da UEFA Avropa Liqasının Bakıda baş tutacaq final oyunu barədə geniş məqalə yerləşdirilib. Nəşr Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadənin sözlərini sitat gətirib: "Avropa Liqasının finalı böyük idman hadisəsidir. Əgər kimsə onu siyasi tədbirə çevirmək istəyirsə, bu, başqa məsələ. Amma Mxitaryana siyasətçi olduğuna görə deyil, idmançı olduğuna görə pul ödəyirlər. Biz bütün siyasi məsələləri bir kənara qoymalıyıq. Mən buna zəmanət verə bilərəm ki, Azərbaycan hökuməti bu oyuna gələn hər bir azarkeş, oyunçu və texniki heyətinin təhlükəsizliyinin təmin olunması üçün lazımı bütün tədbirləri görəcək," - deyə səfir bildirib.

"Foxsports" idman portalı da UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyunu haqqında məqalə yayıb. Məqalədə "Arsenal"ın təcrübəli qapıçısı Peter Çexin öz karyerasını məhz Bakıda keçiriləcək final oyununda bitirəcəyi barədə məlumat verilir.


LOG IN
HOME NEWS FOOTBALL BOXING OTHER TV SCHEDULE

WHAT DID YOU MISS: CECH SET FOR CHELSEA RETURN

06:31 23 May 2019

Arsenal goalkeeper Petr Cech

he 37-year-old has distanced himself from rumours linking him with a return to Stamford Bridge at the end of the season.

Yazıda Mxitaryanın şəxsi təhlükəsizliyi üçün narahatlıqla əlaqədar final oyununa qatılmamaq barədə qərarı ilə bağlı jurnalistlərin suallarını cavablandıran Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevanın fikirləri də yer alıb: "Azərbaycan ilk dəfə deyil ki, mötəbər idman yarışlarına ev sahibliyi edir və paytaxtımızda indiyədək keçirilən çoxsaylı idman yarışlarında erməni əsilli idmançılar da iştirak ediblər".

# The Associated Press: Mxitaryanın Bakıya səfər etməmək barədə qərarı əsassızdır

***"The Associated Press" agentliyi UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyunu ilə bağlı məqalə yayıb. AZƏRTAC xəbər verir ki, "The New York Times" qəzetində də dərc edilən həmin məqalədə Böyük Britaniyanın "Arsenal" klubunun yarımmüdafiəçisi Henrix Mxitaryanın Avropa Liqasının finalında iştirak etmək üçün Bakıya səfər etməyəcəyi və bunu Ermənistan ilə Azərbaycan arasında mövcud olan gərgin münasibətlərlə əlaqələndirdiyi bildirilir.***


The New York Times

Mkhitaryan to Miss Europa League Final for Political Reasons

By The Associated Press

May 21, 2019

The choice of Baku as host of the Europa League final provided Arsenal with further grounds for discontent Tuesday when one of the team's most talented players pulled out of the game for political reasons.

After holding lengthy talks with Arsenal, Henrikh Mkhitaryan said he would not be traveling to Azerbaijan for next week's final because of concerns about the tension that currently exists between the country and his native Armenia.

"It's the kind of game that doesn't come along very often for us players," Mkhitaryan said on his social media channels, "and I must admit, it hurts me a lot to miss it."

UEFA, European soccer's governing body which organizes the Europa League, reacted by saying it had received assurances about Mkhitaryan's safety in Azerbaijan "from the highest authorities in the country" and that a "comprehensive security plan" had been given to

Yazıda UEFA-nın Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) tərəfindən bütün futbolçuların, o cümlədən "Arsenal"ın oyunçusu H.Mxitaryanın şəxsi təhlükəsizliyi üçün hər cür zəmanətlə təmin olunduğu və hətta "Arsenal" komandasına bununla bağlı kompleks təhlükəsizlik planının da təqdim edildiyi bildirilir.

Məqalədə Azərbaycan hökumətinin əvvəlcədən Mxitaryanın mayın 29-da keçiriləcək final qarşılaşmasında oynamasına şərait yaradacağını bildirdiyi də qeyd olunur. "Henrix Mxitaryanın UEFA Avropa Liqasının mayın 29-da "Çelsi" ilə keçiriləcək final oyununda iştirak etmək üçün Bakıya səfər etməmək barədə qərarı əsassızdır və Azərbaycan tərəfinin verdiyi zəmanətin ciddiliyini şübhə altına almaq üçün heç bir səbəb yoxdur", - deyə məqalədə AFFA-nın yaydığı açıqlamaya istinadən bildirilir. Yazıda Azərbaycanın gənclər və idman naziri Azad Rəhimovun sözləri də sitat gətirilir: "Biz hər zaman idmanı bütün bu siyasi məsələlərdən kənarda saxlamışıq".

Yazıda, həmçinin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanın Mxitaryanın təhlükəsizliyinə zəmanət verməməsi ilə bağlı iddialarına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevanın bu məsələyə dair açıqlamasına da yer verilib: "Ermənistan Xarici İşlər Nazirliyinin "Arsenal" futbol klubunun erməni əsilli oyunçusunun Bakıya səfər etməməsi ilə bağlı açıqlaması bu ölkənin daxili siyasi problemləri səbəbindən idmanı siyasət alətinə çevirmək cəhdlərindən xəbər verir. Ermənistan XİN-in belə bir oyunda iştirak etməsi yalnız təəssüf doğurur".

# Müdafiə Nazirliyi: Armen Qriqoryanın səsləndirdiyi sərsəm fikirlər gülünc doğurur



Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın səsləndirdiyi sərsəm fikirlər gülünc doğurur və onun hərb işində diletant olduğunu göstərir. AZƏRTAC xəbər verir ki, bu fikir Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın səsləndirdiyi fikirlərə münasibət bildirən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

Nazirliyin məlumatında bildirilib ki, nəinki Azərbaycanın işğal olunmuş əraziləri, hətta Ermənistanın bütün ərazisi tamamilə Azərbaycan Ordusunun bölmələrinin nəzarəti və müşahidəsi altındadır.





## UNEC III Science Slam beynəlxalq elm müsabiqəsinin qalibi bəlli oldu

UNEC-də III Science Slam beynəlxalq elm müsabiqəsi keçirilib. Müsabiqənin final mərhələsində universitetin rəhbərliyi, müəllim-professor heyəti və tələbələrlə yanaşı, UNEC İctimai Nəzarət Şurasının üzvləri, əməkdar elm xadimi, professor Şahlar Əsgərov, “XXI Əsr” Təhsil Mərkəzi İctimai Birliyinin rəhbəri, təhsil üzrə ekspert Etibar Əliyev, Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü də iştirak ediblər.

UNEC-də təşkil edilən beynəlxalq müsabiqənin əsas fəlsəfəsi elmin informasiyalarla dolu, anlaşılmayan termin və formullarla deyil, tam fərqli üslubda və prizmadan populyarlaşdırılmasıdır.

III Science Slam müsabiqəsinə UNEC-in bütün fakültələri ilə yanaşı, ilk dəfə olaraq Zaqatala filialının da tələbələri qatılıb. Müsabiqənin formatına uyğun olaraq, fakültə qalibləri 10 dəqiqə ərzində öz araşdırmalarını anlaşılan, kreativ və maraqlı şəkildə təqdim ediblər. Tələbələrin elektron xidmətlər, dənizin neftdən təmizlənməsinə ekoloji yanaşma, istehlakçı davranış modeli, dəniz iqtisadiyyatı, informasiya texnologiyaları və sosial şəbəkələr, video oyunların iqtisadiyyatda rolu, irqi ayrıseçlik mövzuları barədə araşdırmaları böyük maraqla dinlənilib.

Təqdimatlardan sonra, qaydalara uyğun olaraq, qaliblərin çıxışları alqış sədaları ilə qiymətləndirilib. Xüsusi cihaz vasitəsilə ölçülən alqışın səs diapazonu qalibi müəyyənləşdirib. 91.3 desibel (dB) səs tezliyində alqış qazanan İqtisadiyyat fakültəsinin tələbəsi Elşən Qurbanov “Video oyunların insan həyatına təsiri” mövzusunda təqdimatı ilə UNEC III Science Slam müsabiqəsinin qalibi olub. Biznes və menecment fakültəsinin tələbəsi Məryəm Bağırzadə 90.1 dB ilə ikinci, Maliyyə və mühasibat fakültəsinin tələbələri Ləman Nəcəfova və Əsmər Heydərli isə 90.4 dB ilə üçüncü yerə layiq görülüblər.

## “Ötənilki dövlət büdcəsinin gəlir və xərclərinin artım tempinin göstəriciləri son 7 ildə ən yüksək göstəricilərdir”

2018-ci il üzrə dövlət büdcəsinin gəlir və xərclərinin artım tempinin göstəriciləri həm icra, həm də məbləğ baxımından son 7 ilin ən yüksək göstəriciləridir. Bu barədə jurnalistlərə müsahibəsində Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib. “Borcu idarə edən strukturların məlumatlarına əsasən, dövlət borcunun ümumi daxili məhsula (ÜDM) nisbəti 20 faizdən aşağıdır. Dövlət borcu kənar dövlət maliyyə nəzarəti orqanlarının nəzarət fəaliyyətinin mühüm tərkib hissəsidir”, - deyə o bildirib.

# Niyə müharibə qəhrəmanlarının saytı yaradılmır?

### *Rusiyanın İkinci Dünya Müharibəsinin iştirakçıları haqqında hazırladığı “pamyat-naroda.ru” saytı da qüsurludur*

***Müharibə ölüm, itim, əsirlik, dağıntı, bir sözlə, fəlakət deməkdir. Dünya yaranandan mala-mülkə, insan əsarətinə, torpaq ilhaqına susamış baş cəlladlar fitnə-fəsadla müharibələr törətmişlər. Yəqin ki, bundan sonra da müharibələrdən qaçmaq mümkün olmayacaq. Albert Eynşteyn deyirdi ki, super gücə malik hegemon dövlətlər olduqca, müharibələr həmişə olacaqdır. Bəşər tarixində ən qanlı savaş kimi tarixə düşən İkinci Dünya Müharibəsindən çox yazılıb, danışılıb, bədii və sənədli filmlər çəkilib.***



Amma hələ də, çox suallara, bir çox mətləblərə tam aydınlıq gətirilməyib. Yeganə aydın olan məsələ ondan ibarətdir ki, 20-ci əsrdə iki dəfə baş vermiş dünya müharibələrinin ideya müəllifi Almaniya olub. 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücum etməsi ilə İkinci Dünya Müharibəsi başlamışdır. Altı il davam edən müharibə də 70-ə yaxın dövlət və 1,7 milyarad insan iştirak etmişdir. Ümumilikdə, 40 ölkəni əhatə edən bu müharibədə 70 milyona yaxın insan həyatını itirib ki, onun da 30 milyonu SSRİ vətəndaşları olub. Ölkəmiz müharibə meydanına çevrilməsə də, neftlə zəngin Bakı nefti o zamankı hegemon və iddialı dövlətlərin paytaxtlarında siyasi rəhbərliklər tərəfindən müzakirə olunan mövzulardan olub. Faşist Almaniyasının füreri Adolf Hitler SSRİ şəklində hazırlanmış ad günü tortunun “Bakı hissəsi”ni kəsib yediyi də, kinokadrlardan və fotolardan məlumdur. Hitler Bakı neftini ələ keçirməklə İran körfəzinə və Hind okeanına hərəkət etmək, eləcə də, SSRİ-nin yanacaq tədarükünü tamamilə sıradan çıxartmaq niyyətində idi.

### Azərbaycanın işğalına hesablanan “Edelveys” hərbi planı

Arzularını reallaşdırılması üçün A.Hitler Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin xəritəsi hazırlanmış və “Edelveys” hərbi planı hazırlamışdır. Ümumiyyətlə, təbii sərvətlərə, eləcə də, strateji-coğrafi mövqeyə malik olan Azərbaycan o dövrdə Hitlerlə yanaşı, digər aparıcı dövlətlərin maraq dairəsində əhəmiyyətli yerlərdən birini tutmuşdur. Hətta Böyük Britaniya və Fransa “Piker” planına əsasən, 1940-cı il may ayının sonlarında Bakının neft mədənlərini bombalamaq planları vardı ki, əgər bu baş versəydi, Bakı şəhəri tamamilə alova bürünmüş olardı. Lakin 1940-cı ilin mayın 10-da Almaniyanın Fransanı işğal etməsi və davamlı olaraq, Böyük Britaniyanı bombalaması “Piker” planının iflasa uğramasına gətirib çıxardı. Azərbaycanın paytaxtı yanmaqdan xilas olmaqla, öz nefti və igid və qəhrəman övladları ilə İkinci Dünya Müharibəsinin hər bir döyüş gedən bölgəsində, cığırında od-alov olub, yandırdı, adı-sanı ilə dillər əzbərinə çevrildi. O zaman SSRİ neftinin 70-75 faizini, benzinin 85-90 faizini Bakı verirdi. Motorlu hərbi texnika, demək olar ki, Bakı yanacağı ilə işləyirdi. 1941-1945-ci illərdə Bakıdan cəbhəyə 75 milyon ton neft, 22 milyon ton benzin göndərilmişdi.

Azərbaycan oğulları Moskvanın müdafiəsində, Stalinqradın, Leninqradın, Ukraynanın, Belorusiyanın, Polşanın, Çexoslovakiyanın, Rumıniyanın, Macarıstanın, Yuqoslaviyanın Bolqarıstanın, Macarıstanın, Rumıniyanın, Yuqoslaviyanın azad edilməsində, Brest qalasının alınmasında, bayrağın Reyxin binasına sancılmasında böyük şücaət göstərmişlər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu barədə demişdir: “Faşizm üzərində qələbənin qazanılmasında Azərbaycan xalqı da öz sanballı töhfəsini vermişdir. Rusiya, Ukrayna, Moldova və Belarusun, Baltikyanı respublikaların, Şərqi Avropa ölkələrinin hitlerçilərdən azad edilməsində, Qərbi Avropada genişlənən müqavimət hərəkatının uğur qazanmasında həmyerlilərimiz mühüm rol oynamışlar”.

### Niyə Bakıya “qəhrəman şəhər” adı verilmədi?

İkinci Dünya Müharibəsi illərində Azərbaycandan cəbhəyə 700 minə yaxın döyüşçü göndərilmişdi ki, onların da 350 mindən çoxu həlak olmuş və itkin düşmüşdü. Böyük Vətən Müharibəsində Azərbaycanın qəhrəman övladları çoxsaylı igidliklər göstərmiş və adlarını hərb tarixinə müharibə qəhrəmanları kimi yazdırmışlar. Müharibədə 121 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına, 34 nəfər “Şöhrət” ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür. Minlərlə soydaşımız SSRİ-nin digər orden və medalları ilə təltif olunmuşlar. Həzi Aslanovun, Mehdi Hüseynzadənin, Hüseynbala Əliyevin, İsrafil Məmmədovun, Ziya Bünyadovun, Qəzənfər Əkbərovun, Bəhyəddin Mirzəyevin, Yusif Sadıxovun, Qafur Məmmədovun, Baloğlan Abbasovun və başqalarının igidlikləri dillər əzbəri olub. General Şarl-De Qollun rəhbərlik etdiyi Fransa Müqavimət Hərəkatının qəhrəman döyüşçüsü, Xarqo təxəllüsü ilə tanınan Əhmədiyyə Cəbrayılov Fransanın Milli Qəhrəmanı adına, dövlət bayrağından irəli getmək şərəfinə layiq görülmüşdür. Ümumilikdə, Fransanın müdafiəsində 3 min azərbaycanlı döyüşçü vuruşmuşdur. Bütün bunlara baxmayaraq, Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi töhfələr Sovet İttifaqının başbilənləri tərəfindən lazımınca qiymətləndirilməmişdir. Qələbənin əldə olunmasında müstəsna rol oynamış Bakı şəhərinə “qəhrəman şəhər” adının verilməsinə də xəsisliklə yanaşmışlar. Təəssüf ki, bu qısqanc münasibət Stalin rejimini əvəz etmiş digər SSRİ rəhbərliyi tərəfindən də davam etdirilmiş və bu gün də öz aktuallığını saxlamaqdadır. Sual yarana bilər: bu gün niyə, SSRİ ki, artıq yoxdur? Bəli, artıq SSRİ yoxdur, amma onun varisi iddiasında çıxış edən Rusiya var. Rəsmi Moskva səhvlərin təkrarlanması önündə getmədiyini nümayiş etdirmək istəyirsə, gec də olsa, Bakıya “qəhrəman şəhər” adının verilməsi barədə, Dövlət Duması səviyyəsində qərar verə bilər. Belə bir təcrübə var, Rusiyanın bəzi şəhərlərinə adlar və ayrı-ayrı müharibə iştirakçılarına ali orden və medallar təqdim olunub.

### “Pamyat-naroda.ru” saytında döyüşçülərimizin adları tam deyil

Hər il 9 may günü, Rusiya SSRİ-nin varisi olaraq, qələbə paradı keçirir və öz hərbi gücünü və qüdrətini, onu sevməyən güc mərkəzlərinə nümayiş etdirməklə yanaşı, müxtəlif tədbirlərdə reallaşdırır. Bu ölkənin nümayiş etdirdiyi layihələrdən biri də, İkinci Dünya Müharibəsinin iştirakçıları haqqında saytın yaradılmasıdır. İlk baxışdan, bunu xoşməramlı addım kimi dəyərləndirmək olar. Yetər ki, heç olmasa, bu məsələ də, ədalət prinsipi qorunsaydı. Ancaq “pamyat-naroda.ru” saytı adlandırılan Rusiyanın layihəsində, faşizm üzərində qələbənin əldə olunmasında, öz canlarını qurban vermiş, sağlamlığını itirmiş, ömürlük şikəst olmuş, arxa cəbhədə “Hər şey cəbhə üçün hər şey qələbə üçün” deyib, az qala 20 saat işləmiş, çalışmış azərbaycanlılar haqqında məlumatlar tam şəkildə yerləşdirilməyib. Adları qeyd olunan

# Niyə müharibə qəhrəmanlarının saytı yaradılmır?

## Rusiyanın İkinci Dünya Müharibəsinin iştirakçıları haqqında hazırladığı "pamyat-naroda.ru" saytı da qüsurludur

azərbaycanlı müharibə qəhrəmanları haqqında məlumatlar isə, səthi verilib, yəni dolğun, ətraflı informasiya əks olunmayıb. Ermənilər barədə isə, daha geniş məlumatlara rast gəlinir. Halbuki Ermənistandan cəbhəyə 120 min döyüşçü göndərilib ki, onun da 80 minə yaxını müharibənin gedişində fərarilik edib və ya könüllü şəkildə almanlara əsir düşüb. Yəni bu məsələdə də, Rusiya tərəfi Ermənistana dədəlik etdiyi, görünür. Bu halda nə etməli, təbii ki, özümüzün saytımızı yaratmalıyıq. Amma təəssüflər olsun ki, nəinki İkinci Dünya Müharibəsinin döyüşçülərilə bağlı, heç Stalin rejiminin repressiya maşınının qurbanı olmuş şəxslər haqqında sayt yaratmağa təşəbbüs göstərmirik.

### 1937-ci il repressiya qurbanlarının saytının yaradılmasına nə mane olur?

*Musa Qasımlı: "Rusiyada saytı hazırlayanlar Azərbaycanın müvafiq qurumlarına müraciət etməli idilər"*

Qarabağ müharibəsində şəhid olmuş, yaralanmış döyüşçülər barədə saytın yaradılması təhlükəsizlik baxımından, məqsədəuyğun sayılmaya bilər. Həm də, hələ ki, müharibə bitməyib. Ancaq qeyd etdiyim kimi, Böyük Vətən Müharibəsinin iştirakçısı olmuş azərbaycanlı döyüşçülər və arxa cəbhədə fədakarlıq göstərmiş zəhmətkeş insanlarımızla bağlı, eləcə də, 1937-ci il repressiya qurbanlarının həyat və fəaliyyətləri haqqında sayt yarada bilərik. Belə bir saytın yaradılması, yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsinə, vətənpərvərlik ruhunda böyüməsinə çox müsbət təsiri olar. Ən azı, müharibə qəhrəmanlarının unudulmadığını və onların bizim üçün əziz olduğunu göstərə bilərik. Millət vəkili Musa Qasımlı bizimlə söhbətində, bildirdi ki, faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycanın böyük rolu olub: "Böyük Vətən Müharibəsi illərində Azərbaycandan cəbhəyə 600 mindən çox insan səfərbər olunub ki, onardan da 500 mini döyüşən ordu sıralarında vuruşub və ya partizan hərəkatında fəaliyyət göstəriblər. Arxa cəbhədə, cəbhə üçün çalışan on minlərlə insanlarımız olub. Ona görə də, Rusiyada Böyük Vətən Müharibəsi döyüşçüləri haqqında sayt hazırlayanlar, ilk olaraq, döyüşçü siyahılarının dəqiqləşdirilməsi üçün Azərbaycanın müvafiq qurumlarına müraciət etməli idilər".

M.Qasımlı QHT-lərin repressiya qurbanlarının saytının yaradılması məsələsini öz üzərlərinə götürmələrinin daha məqsədəuyğun ola biləcəyini söylədi: "Saytın hazırlanması üçün QHT-lər, müvafiq dövlət qurumları ilə əməkdaşlıq etməklə, repressiya qurbanları ilə bağlı saytın yaradılmasına nail ola bilərlər".

### "Bunu Rusiya tərəfi bilməmiş deyil"

*Səməd Vəkilov: "Repressiya qurbanlarına dair qanun qəbul edilməlidir"*

Müvəkkil Hüquq Mərkəzinin sədri, hüquq müdafiəçisi Səməd Vəkilov isə, "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Rusiyada Böyük Vətən Müharibəsi iştirakçıları ilə bağlı "pamyat-naroda.ru" saytını hazırlayanlar azərbaycanlı döyüşçülərin adlarını sayta yerləşdirməsində səthi yanaşma nümayiş etdirməklə, qeyri-peşəkarlığa və haqsızlığa yol vermiş olublar: "Müharibənin qələbə ilə başa çatmasında Mehdi Hüseynzadə, İsrafil Məmmədov, Həzi Aslanov, Qafur Məmmədov, Hüseynbala Əliyev və bu kimi digər Azərbaycan döyüşçülərinin böyük igidliyi, qəhrəmanlığı olub. 1941-1945-ci illərdə cəbhəyə neftin 70 faizini, benzinin 90 faizini Bakı verirdi. Bu baxımdan, Azərbaycanın və azərbaycanlı döyüşçülərinin Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin qazanılmasında rolu böyük olub. Bunu Rusiya tərəfi də bilməmiş deyil". S.Vəkilovun sözlərinə görə, Azərbaycanda ixtisaslaşmış QHT-lər fəal olmalı və İkinci Dünya Müharibəsinin azərbaycanlı döyüşçülərinin uçotunu dəqiq aparmalı və "pamyat-naroda.ru" saytında yerləşdirilməsinə nail olmalıdır.

Hüquq müdafiəçisi 1937-ci il repressiya qurbanları ilə bağlı saytın yaradılmasının da zəruri olduğunu bildirdi: "Hesab edirəm ki, saytın yaradılması tarixin qaranlıq səhifələrinə işıq salmış olacaq. Bunun üçün ayrıca repressiya qurbanlarına dair qanun da qəbul edilməlidir".




### Firdovsiyyə Əhmədova: "Saytda ayrı-seçkiliyə yol verilməsi ciddi qüsur və nöqsandır"

Tarixçi-alim Firdovsiyyə Əhmədova isə bizimlə söhbətində "pamyat-naroda.ru" saytında azərbaycanlı döyüşçülərin adlarının tam salınmaması məsələsinin aydınlaşdırılmasına zərurət olduğunu bildirdi: "Ümumilkdə, saytda ayrı-seçkiliyə yol verilməsi ciddi qüsur və nöqsandır. Faşizm üzərində qələbənin qazanılmasında bütün İttifaq respublikalarının rolu olub. Qələbənin əldə olunmasında bir millətin və bir respublikanın adının çəkilməsi ədalətsizlikdir. Beynəlxalq tədbirlərdə, yalnız Rusiya deyil, qələbənin qazanılmasında rolu olan keçmiş SSRİ-nin bütün respublika rəhbərliyi iştirak etməlidir. Azərbaycan qələbənin qazanılmasına sərvəti, həm də canlı qüvvəsi ilə mühüm töhfələr verib. Respublikamızdan cəbhəyə 600 mindən çox insan gedib ki, onlarda da 300 mini həyatlarını itirib, itkin düşüb və ya yaralanıb. Minlərlə azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı, Lenin ordeni və digər medallarla təltif olunublar. Bir sözlə, müharibənin qələbə ilə başa çatmasında Azərbaycanın əhəmiyyətli rolu olub. Bu baxımdan, İkinci Dünya Müharibəsinin döyüşçülərilə bağlı "pamyat-naroda.ru" saytını hazırlayanlar azərbaycanlı döyüşçülərin adlarını sayta daxil edilməsinə xüsusi diqqət ayırmalı idilər".

Tarixçi-alim Azərbaycanın repressiya qurbanları ilə bağlı saytın yaradılmasının aktual məsələlərdən olduğunu bildirdi: "1937-ci il repressiya qurbanları ilə bağlı saytın yaradılması vacib və əhəmiyyətlidir. Çünki repressiya qurbanları haqqında məlumatları repressiyadan əziyyət çəkmiş ailələr və tarixçilər deyil, bütün ölkə vətəndaşları məlumatlı olmalıdır. Bu məlumatları isə, yalnız hazırlanacaq sayt vasitəsi ilə əldə etmək olar".

Bir sözlə, göründüyü kimi, Rusiyanın İkinci Dünya Müharibəsinin iştirakçıları haqqında yaratdığı sayt da azərbaycanlı döyüşçülərə xəsisliklə yer ayrılması Kremlin qaranlıq dairələrinin ölkəmizə qarşı tarixə ədalətsiz yanaşmasının, bu gün də davam etdiyini göstərir. Amma real bir həqiqət var, tarixi gerçəkliyi örtbasdır etməyə cəhd etmək, karlara, korlara və nadanlara məxsusdur. Azərbaycanlı döyüşçülər mərdlikləri, qorxmazlıqları və igidlikləri ilə İkinci Dünya Müharibəsinin gedişini dəyişməyə müvəffəq olublar. Bəlkə də Azərbaycanın, azərbaycanlı döyüşçülərin fədakarlığı, qəhrəmanlığı olmasa idi, müharibənin nəticəsi başqa cür olardı. Bunu, ekspertlərin də dediyi kimi, yalnız Rusiya deyil, bütün demokratik düşüncəli dünya xalqları bilməmiş deyil.

**İ.ƏLİYEV**

***P.S. Mövzu ilə bağlı araşdırmalarımız davam edir.***

# "Bu qüvvələr köhnə üsullarla ara qatmağa, ürək bulandırmağa çalışırlar"

"Bu gün Azərbaycan beynəlxalq tədbirlərə, qitəmiqyaslı idman yarışlarına ev sahibliyi edir. Təbii ki, bu amil ölkəmizdə mükəmməl infrastrukturun mövcud olması ilə yanaşı, həyata keçirilən uğurlu siyasət, sabitlik, inkişaf və təhlükəsizliklə bağlıdır. Azərbaycanın malik olduğu bu müsbət dəyərlər onu dünyanın diqqət mərkəzində saxlamaqla yanaşı, beynəlxalq birliyin arzulanan bir üzvünə çevirib. Sözsüz ki, uğurlarımıza sevinənlərlə bərabər, gündən-günə yüksələn imicimizi qaralamağa, ləkələməyə çalışan "qüvvələr" də var. Erməni lobbisinin və onların havadarlarının əlində alətə çevrilən bu cür qərəzli dairələr zaman-zaman, fürsət düşdükcə öz çirkin planlarını həyata keçirməyə, anti-Azərbaycan kampaniyası aparmağa cəhd edirlər. Lakin heç vaxt öz istəklərinə çata bilmirlər. Çünki Azərbaycan xalqı və dövləti kifayət qədər tutarlı arqumentlərlə, haqq və həqiqətlərə söykənərək onların cavabını verir və yerində oturdur". Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.



Vüqar Rəhimzadə bildirib ki, bugünlərdə Bakıda UEFA Avropa Liqasının final matçının keçiriləcəyi ərəfədə fəallaşan bu qüvvələr yenə köhnə üsullarla ara qatmağa, ürək bulandırmağa çalışırlar: "Söhbət "Amnisty İnternational" təşkilatının UEFA Avropa Liqasının final matçının məhz Bakıda keçirilməsini pisləməsində gedir. Təşkilat bu iddiasını Azərbaycanda insan haqlarının durumu ilə əlaqələndirməyə cəhd edir. Hamıya bəllidir ki, "Amnisty İnternational" bəzi xarici dairələrin əlində sadəcə alət rolunu oynayır, lazım gəldikdə bu üzdəniraq qurumdan "demokratiya", "insan hüquq və azadlıqları" adı altında bir sıra ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə edilir. Nə üçün bu təşkilat Avropada baş verən haqsızlıqlara göz yumur, Azərbaycana və bəzi ölkələrə qarşı isə qərəzli, çirkin kampaniya aparır?! Ona görə də sifariş yerinə yetirən, korrupsiyalaşmış "Amnisty İnternational" adlı qurumun demokratiyadan danışmağa haqqı yoxdur". İdmanın bu şəkildə siyasiləşdirilməsinin yolverilməz olduğunu bildirən "İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, bu cür "cəhdlərin" qarşısı qətiyyətlə alınır və bundan sonra da alınacaq

# Prezident Salome Zurabişvili Azərbaycan-Gürcüstan sərhədlərinin delimitasiyası prosesinin bərpasını alqışlayır

Gürcüstan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası prosesinin uzun illərdən sonra bərpa olunmasını alqışlayıram. AZƏRTAC xəbər verir ki, bu fikri Gürcüstan Prezidenti Salome Zurabişvili özünün "Facebook" səhifəsində yazıb. Gürcüstan dövlətinin başçısı bu məsələni Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə də müzakirə etdiyini xatırladıb. "Əminəm ki, tərəflər iki ölkə arasında uzun illər davam edən mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərini rəhbər tutacaqlar və bu da tezliklə nəticə verəcək", - deyə Prezident qeyd edib.



# Xızı rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfransda YAP Xızı rayon təşkilatının, keçən müddət ərzində, görülən işlər və qarşıda dayanan məsələlər barədə çıxışlar olunub və məruzələr dinlənilib.***



Konfransa sədrlik edən YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev partiya rəhbərliyi tərəfindən qarşıya qoyulan məqsədlər, eləcə də, gənclərin partiyadakı rolu, ölkə rəhbərliyinin Azərbaycan gəncliyinə göstərdiyi davamlı diqqət və qayğısı barədə danışa-



raq, konfransı açıq elan etdi.

YAP Xızı rayon təşkilatının gənclər birliyinin üzvü İman Ağayev məruzə ilə çıxış edərək, bildirdi ki, partiyanın Xızı rayon təşkilatının gəncləri, ötən müddət ərzində, istər seçkilərdə, istərsə də digər əhəmiyyətli ictimai-siyasi tədbirlərdə uğurlu fəaliyyət göstərərək, öz davamlı töhfələrini veriblər: “Bu gün partiyamızın sıralarında təmsil olunan hər bir xızılı gənc bundan sonsuz qürur və fərəh hissi duyur. Gənclərimiz Ulu Öndər Heydər Əliyev ideologiyası və bu ideologiyanı uğurla davam etdirən partiyamızın Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər”.

Konfransda çıxış edən gənclərdən Səidə Dadaşova və Elyanar Hüseynov da ölkəmizdə yürüdülən uğurlu gənclər siyasətindən danışaraq, əldə edən nailiyyətlərin hər birinin Azərbaycanın daha uğurlu gələcəyinə stimul verdiyini qeyd edərək, ölkə gəncliyinin partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşdiyini bildiriblər.

Məruzələrdən sonra təşkilati məsələlərə baxılıb və YAP Xızı rayon təşkilatının gənclər birliyinin şura üzvlərinin və idarə heyətinin yeni tərkibi, eyni zamanda, gənclər birliyinin sədri və sədr müavinləri səsvermə yolu ilə seçilib. YAP Xızı rayon təşkilatının gəncləri yekdilliklə gənclər birliyinin sədri vəzifəsinə İman Ağayev seçiblər.

Konfransda YAP Xızı rayon təşkilatının gənclər birliyinin Ümumrespublika Konfransına nümayəndələri də seçilib.

Konfransda çıxış edən “SƏS” qəzetinin baş redaktoru Bəhruz Quliyev YAP Xızı rayon təşkilatının rəhbərliyini və gəncər birliyini keçirilmiş konfrans münasibəti ilə təbrik edərək, bildirib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev daim Azərbaycan gəncliyinin institusional inkişafını təmin edir: “Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin kökündə dayanan amil ötən əsrin 90-cı illərin əvvəllərində vətəndaş müharibəsindən çıxan Azərbaycan gəncliyinin vətəndaş cəmiyyətinin formalaşması prosesinə cəlb olunması və həmin dövrdən etibarən həyata keçirilən uğurlu gənclər siyasətinin nəticəsidir. Azərbaycanda gənclərin inkişafı istiqamətində atılan addımların başlıca məqsədi gənclərin enerjisindən dövlət idarəçiliyində, ictimai institutlarda, qanunvericilik orqanlarında və mühüm platformalarda daha səmərəli istifadə etməkdir. Bu gün gənclərimiz ölkəmizi müxtəlif beynəlxalq tribunalarda, mühüm yarışlarda, elm auditoriyalarında təmsil edə bilirsə, bu, Azərbaycan gəncliyinin inkişafının göstəricisi və dövlətin həyata keçirdiyi uğurlu gənclər siyasətinin bariz nümunəsidir”.

Bəhruz Quliyev qeyd edib ki, ötən dövr ərzində, Azərbaycanda kifayət qədər savadlı, yetkin siyasi şüurlu, dünyagörüşlü gənclik formalaşıb və onların əksəriyyəti YAP-ın sıralarında təmsil olunurlar. Bu, dövlətin ölkə gəncliyinə diqqət və qayğısının bariz təcəssümüdür: “Azərbaycanda həyata keçirilən dövlət proqramları, layihələr təkcə paytaxt gənclərini deyil, eləcə də, region gənclərinin inkişafını stimullaşdırır. Region gənclərinin sağlam ruhda inkişaf etməsi məqsədilə bölgələrimizdə idman mərkəzləri, Olimpiya kompleksləri, gənclər evləri və müxtəlif dərnəklər açılır, onların asudə vaxtlarının səmərəli şəkildə keçməsi üçün lazımi infrastruktur yaradılır. Bir sözlə, Azərbaycan gənclərinin xaricdə təhsilindən tutmuş, fərdi inkişaflarına qədər bir sıra dövlət qurumları və fondlar tərəfindən dəstək göstərilir. Bu uğurlar həm dövlətin apardığı siyasət, həm də liderin şəxsi iradəsi nəticəsində qazanılıb. Ən əsası odur ki, gənclik bunu yüksək qiymətləndirir və biz bunun aprel döyüşlərində də, bir daha şahidi olduq. Belə ki, həmin vaxt Azərbaycan gəncliyi Ali Baş Komandanın bir əmri ilə torpaqlarımızı azad etməyə hazır olduğunu əməli işi ilə sübut etdi. Bu isə liderə etiramın və inamın əlamətidir”.

Bəhruz Quliyev YAP Xızı rayon təşkilatının gənclər birliyinin yeni seçilmiş tərkibinə nailiyyətlər arzulayıb və partiya rəhbərliyi tərəfindən qarşıya qoyulan məqsədlərə uğurla imza atacaqlarına əminliyini ifadə edib.

***RÖVŞƏN NURƏDDİNOĞLU***

# Erməni bacı və qardaşdan Mxiratyana “qorxaq olma” dərsi

## *Canazanyanlar Bakıda Avropa çempionatına qatılıblar*



***İngiltərənin “Çelsi” futbol klubunun erməni futbolçusu Henrix Mxitaryanın, Azərbaycan tərəfindən ona verilmiş təhlükəsizlik zəmanətinə baxmayaraq, qorxaqcasına UEFA-nın Bakı finalında iştirakından imtina etməsi, artıq beynəlxalq ictimaiyyət tərəfindən də istehza ilə qarşılanmaqdadır. Bu məsələni qəsdən siyasiləşdirib, Azərbaycanın üzərinə ləkə yaxmağa cəhd edən erməni futbolçunun növbəti ifşasında isə, bu dəfə, məhz erməni idmançıları rol alıb. Məlumata görə, Mxitaryan hyay-haray saldığı bir vaxtda, ölkəmizin paytaxtına çox rahat və problemsiz olaraq, iki erməni idmançı gəlib. Onlar Rusiya yığmasının tərkibində sabah Bakıda start götürəcək idman aerobikası üzrə Avropa çempionatında iştirak edəcəklər. Söhbət isə, bacı və qardaş Gersevane və Duxik Canazanyanlardan gedir.***

### Canazanyan bacı-qardaş burada özlərini rahat və təhlükəsiz hiss edirlər

Bu isə, bir daha təsdiq edir ki, Azərbaycan daha öncələr də dəfələrlə bəyan etdiyi prinsipinə sadiq qalmaqda davam edir - idman siyasətdən kənar olmalıdır! Çünki nəinki Canazanyanlar, o cümlədən, digər erməni idmançıları üçün Bakıda istənilən idman turnir və yarışlarına qatılmaq əngəl ola bilməz. Biz, I Avropa Oyunları da daxil olmaqla, dəfələrlə müxtəlif idman yarışlarında erməni idmançılarının iştiraklarını, hətta dövlət başçımız tərəfindən mükafatlandırıldıqlarını da xatırlaya bilərik. Əgər erməni idmançılarına dövlət səviyyəsində zəmanət verilməsəydi, əlbəttə ki, onlar Bakıda, yaxud regionlarımızda təşkil edilən beynəlxalq yarışlara qatılmazdılar. O cümlədən, bir çox ictimai-siyasi tədbirlərdə, konfrans və seminarlarda da, Ermənistan nümayəndələri, habelə, digər ölkələrdə yaşayan erməni mənşəli şəxslər özlərini ölkəmizdə çox rahat hiss ediblər, hətta şəhər gəzintilərinə belə çıxıblar. Göründüyü kimi, Canazanyan bacı-qardaşı da burada özlərini rahat, təhlükəsiz hiss edirlər. Yeri gəlmişkən, idman aerobikası üzrə Avropa çempionatında 22 ölkədən idmançı qatılacaq.

Sonda isə, belə nəticəyə gələ bilərik ki, idmanı siyasətə qataraq, qazandıqları reputasiyalarına kölgə salan Mxiratyan və onun kimilərinə dəstək verən bəzi yerli qaragüruhçu siyasətbazların, hüquq müdafiəçilərinin qeyd edilən faktlara toxunmayaraq, məhz UEFA üzərində haray-şivən qoparmaları, artıq hər şeyi yerli-yataqlı olaraq agah edib. Məqsəd şantaj və böhtandır ki, bu dəfə həmin cəhdin qarşısını elə Bakıya gəlmiş erməni bacı və qardaş almış oldu.

***Rövşən RƏSULOV***

# “Amnesty İnternational” əvvəlki oyunlarını təkrarlamaq istəyir”



“Ümumiyyətlə, “Amnesty İnternational” təşkilatı bu cür hadisələrlə əslində özünün mahiyyətini açır və özünü ifşa etmiş olur. Çünki bu məsələ bir idman oyunudur. İdman oyununun siyasətə qatılması yolverilməzdir. Göründü ki, onlar bu idman oyununun üzərində bir neçə oyun qurmaq istədilər. Onlar gah dedilər ki, “Arsenal” futbol klubunun erməni əsilli oyunçusu Henrix Mxitaryanın Azərbaycana gəlməsində təhlükə var. Amma sonda bu arqumentlər iflasa uğradı. Bəzən isə dedilər ki, Azərbaycan bu oyunları keçirmək iqtidarında deyil. Təbii ki, bu da sonda iflasa uğradı. Çünki Azərbaycan dövləti dəfələrlə bu cür oyunları keçirib”. Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib.

Sədr müavinin sözlərinə görə, ölkəmiz həm özünün ifrastukturu, həm də iradəsi baxımından sübut edir ki, bu kimi iri yarışları keçirmək iqtidarındadır: “Onlar indi də insan haqları məsələsini ortaya atıblar. Bu tam qərəzli və ayıb olan bir məsələdir. Çünki “Amnesty İnternational” təşkilatının məşğul olmalı olduğu çox ciddi məsələlər var. Hətta Avropanın özündə, Ermənistanda (həbslər, siyasi rəqiblərin əzilməsi, sındırılması və s.), Fransada (“sarı jiletlilər”in aksiyası, həbslər, öldürülən insanlar və s.) baş verən ciddi proseslər var. Amma biz bu təşkilatın hesabatlarına nəzər salsaq bunların heç birini görməyəcəyik. Ümumiyyətlə dünyada çoxsaylı münaqişə ocaqları var ki, həmin münaqişə ocaqlarında bu cür insan haqları təşkilatları işləməlidirlər və öz sözlərini deməlidirlər. Təbii ki, bütün bunlar onu göstərir ki, “Amnesty İnternational” təşkilatı Azərbaycanda marağı olan güclərin, bəzi güc mərkəzlərinin sifarişlərini yerinə yetirir və yalnız sifarişlə hərəkət edir. Əslində Azərbaycanın da bu cür hadisələr qarşısında qətiyyətlə dayanması onun özünün ifşa olunmasına səbəb olur. Yəni bunlar tamamilə uydurma bir məsələdir. Bu təşkilat 2012-ci ildə Bakıda keçirilən “Avroviziya” mahnı müsabiqəsi zamanı, 2015-ci ildə Birinci Avropa Oyunları zamanı nə oyunlar çıxarmışdısa, yenə də həmin oyunları təkrarlamaq istəyir. Amma bu oyunlar artıq keçmir. Çünki dünya həqiqəti görür”.

***Ceyhun Rasimoğlu***

# “Amnisty İnternational” dəyişməz ampluasındadır

***Rüşvətxorluqda, korrupsiyada və qeyri-fəaliyyət metodları ilə tanınan “Amnisty İnternational” təşkilatı UEFA Avropa Liqasının finalının Azərbaycanda keçirilməsini tənqid edib və səbəbini Azərbaycanda insan hüquqlarının pozulması ilə əlaqələndirib. Rüşvətxorluqda və korrupsiyada ittiham edilən və buna görə də, dəfələrlə məhkəmələrə çəkilən bir təşkilatın Azərbaycanı günahlandırması nə dərəcədə düzgündür? Söhbət etdiyimiz müsahiblərimiz bu təşkilatın məkrli siyasi anti-Azərbaycan mərkəzlərin sifarişini yerinə yetirdiyini söylədilər.***

## “Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova: “Amnisty İnternational” təşkilatı həmişə Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilib”



- “Amnisty İnternational” təşkilatı həmişə Azərbaycana qarşı özünün qərəzli mövqeyi ilə seçilib. Adını hüquq-müdafiə təşkilatı qoysa da, ölkəmizlə bağlı aparılan qarayaxma kampaniyasında heç bir tutarlı əsası olmayan hesabatlar yaymaqla öz qərəzli mövqeyini nümayiş etdirib. Azərbaycan UEFA Avropa Liqasının finalına hazırlaşır. Bu möhtəşəm beynəlxalq idman tədbirinə, artıq sayılı günlər qalıb. Finalda iştirak edəcək komandaların adları bəlli olduqdan sonra “Arsenal” klubunun erməni əsilli oyunçusu ətrafında yaradılan səs-küy istədikləri effekti vermədi. Erməni lobbisinin bütün səylərinə baxmayaraq, UEFA və dünya futbol ictimaiyyəti Azərbaycanı dəstəklədi. Dəfələrlə erməni əsilli idmançıların Bakıda keçirilən müxtəlif yarışlarda təhlükəsiz şəkildə iştirakı ilə bağlı rəsmi Bakının prinsipial mövqeyi alqışlandı. İndi isə adı rüşvətxorluqda, korrupsiyada və qeyri-fəaliyyət metodları ilə tanınan “Amnisty İnternational” təşkilatını ortaya atıblar. Bu təşkilat erməni lobbisindən aldığı rüşvətlə ölkəmiz haqqında həqiqətə uyğun olmayan ittihamlar irəli sürür. Halbuki iddia etdiyi insan haqlarının müdafiəsi sahəsində Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə başladılan məhkəmə-hüquq sistemi ilə bağlı dərin islahatlardan bir kəlmə də olsun danışılmır. Azərbaycanın müxtəlif sahələr üzrə ən çox islahat aparan dünyadakı 10 ölkə sırasında olduğundan bir kəlmə belə bəhs edilmir. Bu islahatların hamısı Azərbaycanda vətəndaşların hüquq və azadlıqlarının daha liberal dəyərlər əsasında təminine yönəlib.

## Milli QHT Forumunun prezidenti Rauf Zeyni: “Amnesty İnternational” qarayaxma kampaniyası aparır”

- Azərbaycan dövləti bir uğur və nailiyyət əldə edən kimi, “Amnesty İnternational” kimi beynəlxalq təşkilatlar o dəqiqə narahat olurlar. Onlar Azərbaycanın uğurlarından qıcıqlanırlar və qısqanclıq hissi ilə qarayaxma kampaniyası aparmağa başlayırlar. Nə üçün eyni münasibəti Ermənistana və başqa ölkələrə bildirmirlər? Azərbaycan türk-müsəlman ölkəsi olaraq, Qafqazda lider ölkə olduğuna və Şərqlə Qərbin körpüsü rolunu oynadığına görə, narahatçılıq keçirirlər. Yeni müstəqillik əldə etmiş ölkələrin inkişafına dəstək vermək əvəzinə, “Amnesty İnternational” təşkilatı işini- gücünü buraxıb, başlayıb uğurları ilə dünyada söz və nüfuz sahibinə çevrilən Azərbaycana qarşı qarayaxma kampaniyası aparmağa. Guya Azərbaycanda insan hüquqları pozulur. “Amnesty İnternational” təşkilatından erməninin də təmsil olunduğu, rəhbərliyinin gözləri görmür ki, Azərbaycanda 1 milyon 200 min qaçqın var. Niyə tarixi Ermənistan ərazilərindən və işğal olunan Azərbaycan torpaqlarından qaçqın və məcburi köçkünə çevrilən insanların hüquqlarını müdafiə eləmir? Azərbaycanın 30 ildən çoxdur 20 faiz torpaqları erməni işğalı altındadır. İşğalçı Ermənistana qarşı sanksiyalar tətbiq etmək lazımdır ki, o, işğalçı ordusunu burdan çıxarsın, sülhlə əlaqədar, konstruktiv mövqe nümayiş etdirsin. Ancaq “Amnesty İnternational” təşkilatı bu barədə heç düşünmür də. 30 ildir Ermənistan beynəlxalq təşkilatların qeyd-şərtsiz Azərbaycan torpaqlarını boşaltmaq barədə qərarlarına heç bir əhəmiyyət vermir. Yəni nə BMT-nin, Avropa İttifaqının, nə də Avropa Şurasının qərarlarına əhəmiyyət vermir. Buna görə “Amnesty İnternational” təşkilatı nə üçün bir tədbir görmür? İşğalçı Ermənistan burda qalıb, düşüb əraziləri işğal olunmuş Azərbaycanın üzərinə. “Amnesty İnternational” təşkilatı Azərbaycanın inkişafına, uğurlarını səmimiyyətlə qəbul eləsin, ona obyektiv yanaşsın və obyektiv qiymətləndirsin.



## “Palitra” qəzetinin baş redaktoru Namiq Əliyev: “Amnesty İnternational” təşkilatının çıxışı istehza doğurur”



- “Amnesty İnternational” təşkilatının UEFA Avropa Liqasının Bakıda keçirilməsinin əleyhinə çıxış etməsi, baş-dan-ayağa qərəzli yanaşmadır. Bu qurumun hansısa ölkəni demokratiya və insan hüquqları kimi məsələlərdə ittiham etməsi dünya ictimaiyyətinin savadlı kəsimində istehza doğurur. Artıq dünyada hamı anlayır ki, insan hüquqlarının müdafiəsi adı altında, gizlənənlərin əsl niyyəti və məqsədi hədəfə götürdüyü ölkəyə təzyiq etməkdir. Azərbaycanı istəməyən qüvvələr, yaxşı başa düşürlər ki, bu final oyununu izləməyə gələn minlərlə Avropa vətəndaşı Bakıya heyran qalacaq. Buradakı sabitliyi, tolerantlığı və səmimiliyi görəndən sonra “Amnesty İnternational” kimi qərəzli qurumların təbliğatı puç olacaq. Digər tərəfdən, mayın 29-da Bakıda UEFA İcraiyyə Komitəsinin iclası keçiriləcək. Bütün Avropa futbolsevərlərinin diqqəti Azərbaycana yönələcək, bütün dünya KİV-ləri Azərbaycandan danışacaq, yazacaq... Təbii ki, bu da, kimlərəsə xoş gəlmir.

***GÜLYANƏ***

# “Bir damla qan həyatdır”



YAP Suraxanı rayon təşkilatı və 15 saylı Birləşmiş Şəhər Xəstəxanası ərazi ilk partiya təşkilatı ilə birgə təşkilatının inzibati binasında Müqəddəs Ramazan ayı münasibəti ilə “Bir damla qan həyatdır” şüarı ilə qanvermə aksiyası təşkil edilib. Qanvermə aksiyasının təşkil edilməsində əsas məqsəd anemiyalı uşaqlara yardım etməkdən ibarət olub.

Qanvermə aksiyası ilə bağlı məlumat öncədən sosial şəbəkələr vasitəsilə elan edilmiş və könüllü iştirakçı olmaq istəyənlər qeydiyyata alınmışdır. YAP Suraxanı rayon təşkilatının inzibati binasında həkim briqadası tərəfindən aksiyada iştirak edəcək şəxslərin tibbi müayinəsi aparılmış və sağlam olan şəxslər aksiyada iştirak etmişlər.

***ZÜMRÜD***

# İsrailin İ24 xəbər telekanalı: Dağlıq Qarabağ Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış ərazisidir




Azərbaycan Odlar Diyarıdır. Bu od, həm çoxlarının qəlbinə hərarət verir, həm də ərazilərinin Ermənistan tərəfindən işğal edilməsindən zərər çəkmiş Azərbaycan xalqının tarixinə işıq saçır. AZƏRTAC xəbər verir ki, israilli jurnalist Daniel Tsemax İsrailin nüfuzlu İ24 telekanalında nümayiş etdirilmiş süjetində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiki vəziyyəti barədə söhbət açır: https://www.youtube.com/-watch?v=G3wUB5yC-PM

Jurnalistin sözlərinə görə, Sovet imperiyasının dağılmasından keçən 27 ildən artıq müddətdə Azərbaycan onun ərazisinin 20 faizini işğal etmiş qonşu Ermənistanın ərazi iddiaları ilə bağlı etnik münaqişədən əziyyət çəkir. Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonun ərazisi Ermənistan tərəfindən işğal edilib. İsrailli jurnalist vurğulayır ki, Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış ərazisidir.

Daniel Tsemaxın sözlərinə görə, illər boyu mövcud olan atəşkəs rejiminə baxmayaraq bu illər ərzində Ermənistanla Azərbaycan arasında vaxtaşırı döyüş əməliyyatları baş verib. İsrailli jurnalist öz süjetində deyib: “Sonuncu tammiqyaslı hərbi qarşıdurma 2016-cı ilin aprelində baş verib. Azərbaycan silahlı qüvvələri 2016-cı il aprelin əvvəlində Ermənistanın hərbi provokasiyalarına cavab olaraq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə erməni ordusuna sarsıdıcı hərbi zərbələr endirib. Bu döyüşlərin sübutları hələ itməyib”.

Tsemax yazır ki, cəmi bir neçə il bundan əvvəl ermənilərin atdığı minomyot mərmiləri Tərtər rayonunun mərkəzindəki binalara düşüb. Qanlı münaqişənin izləri bu şəhərdə hələ də qalır, münaqişə hər gün davam edir. Lakin bu münaqişə Azərbaycan əhalisini daha sıx birləşdirib, xalq daha dözümlü olub, öz torpağına daha möhkəm bağlanıb. Tərtər sakini Bulud Budaqov: “Münaqişənin lap əvvəlindən biz buradayıq və heç yerə getməyəcəyik. Ölsək də burada öləcəyik. Bu, bizim torpağımızdır, bu torpaq bizə, bizim xalqımıza məxsusdur. Biz başqasının torpaqlarına iddia etmirik, öz torpağımızda rahat yaşamaq istəyirik”.

İsrailli jurnalist deyir: “İşğal edilmiş Azərbaycan əraziləri ilə təmas xəttinə yaxınlaşdıqda orada yandırılmış torpağı, dağıdılmış evləri və viran edilmiş məzarlıqları görürük. Biz bilirik ki, Ermənistan ilə Azərbaycan arasında ərazi münaqişəsi nəticəsində qurbanlar çox olub. Erməni silahlı dəstələri tərəfindən dağıdılmış bu evdə sözün həqiqi mənasında faciə baş verib. 2016-cı ilin aprel ayında ermənilər tərəfindən buraxılmış raket birbaşa bu evə düşərək onu dağıdıb. Həlak olmuş azərbaycanlı TƏRANƏ HƏSƏNOVANIN ANASI deyir: “Mənim evim raket zərbəsi ilə dağıdılıb. Ermənilərin atdığı mərmi evimin həyətinə düşəndə 16 yaşlı qızım Təranə Həsənova faciəvi şəkildə həlak olub”.

Tsemax qeyd edir ki, azərbaycanlıların sözlərinə görə, ermənilər daim provokasiya və təxribatlar törədir, Azərbaycan kəndlərini atəşə tutur, nəticədə dinc əhali arasında tələfat olur. Öz doğma torpaqlarını işğalçılardan azad etməyə çalışan Azərbaycanlı əsgərlər fədakarcasına döyüşərək, möhkəmlədilmiş yüksəklikləri qısa müddətdə tutub və erməniləri oradan çıxarıblar. Hasarlar, minalar, pulemyot və artilleriya atəşləri bu əsgərləri dayandırmayıb. Lələtəpə yaxınlığında şiddətli döyüşdə Azərbaycan silahlı qüvvələri Cocuq Mərcanlı kəndinin yaxınlığındakı strateji əhəmiyyətli döyüş postunu tutublar. Azərbaycan hökuməti bu kəndi bərpa edib və kəndin əvvəlki sakinlərinin hamısı oraya qayıda biliblər.

Ermənilər həm Lələtəpədə, həm də Cocuq Mərcanlı kəndi uğrunda döyüşdə rus tanklarından və artilleriya silahlarından istifadə ediblər.

Azərbaycan müdafiə nazirinin müavini general Kərim Vəliyev: “Ermənistanda Rusiyanın hərbi bazaları var, onlar Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində əməkdaşlıq edir və eyni hərbi struktura daxildirlər”. Kərim Vəliyev deyir: “Biz Rusiyadan silahları pulla alırıq, Ermənistana isə Rusiya silahı pulsuz verir. Əlbəttə, belə bir fikir yaranır ki, görünür, bəzi ölkələr bu münaqişənin davam etməsində maraqlıdırlar”.

Süjetin sonunda studiyada çıxış edən Daniel Tsemax vurğulayır ki, bu gün İsrail ilə Azərbaycan arasında strateji tərəfdaşlıq yüksək səviyyədədir. Məhz Azərbaycan ilə İsrailin hərbi əməkdaşlığı sayəsində regionda qüvvələr nisbəti əsaslı şəkildə dəyişib və Azərbaycan silahlı qüvvələri praktiki olaraq bir neçə gün ərzində işğalçı erməni ordusunun ön hissələrini məhv ediblər. Tsemax vurğulayır ki, bu gün Azərbaycan ilə İsrail arasında hərbi və hərbi-texniki sahədə münasibətlər tərəfdaşlıq münasibətləri kimi səciyyələnir. İsrailin nüfuzlu İ24 xəbərlər telekanalının israilli jurnalisti Daniel Tsemax öz süjetinin sonunda deyir: “İndiki halda tərəfdaşlıq çox yüksək səviyyədədir, ikitərəfli siyasi və iqtisadi münasibətləri etimada əsaslanan yüksək səviyyəli strateji tərəfdaşlıq hesab etmək olar”.

***Ermənistanda bir-birinin ardınca baş verən siyasi proseslər işğalçı ölkədə gərginləşən vəziyyəti daha da ağırlaşdırıb. Xüsusilə də, azadlığa buraxılması ilə yanaşı, Koçaryan-Sarkisyan-Saakyan üçlüyünün yaratmış olduğu ittifaq Nikol Paşinyan hökumətinə qarşı ciddi təhlükə yaratdır. Bəzi politoloqlar Robert Koçaryanın azad edilməsini Rusiya amili ilə əlaqələndirirlər. Bildirilir ki, Ermənistan baş naziri Nikol Paşinyan çarəsizlikdən, sələfləri kimi, Rusiyadan asılı olmağı qərarlaşdırıb və Kremldən öz hakimiyyətinə dəstək alıb. Bu dəstəyin qarşılığında isə, Moskva Paşinyandan yaxın adamı Robert Koçaryanın həbsdən azad edilməsini istəyib. Baxmayaraq ki, Koçaryan-Sarkisyan-Saakyan üçlüyünün Yerevanda, hətta hakimiyyət çevrilişinə hazırlaşdığını bildirirdilər.***



# Paşinyan-Koçaryan ixtilafı

## *Ermənistanın baş naziri üçün siyasi gərginlik dövrü başlanır*

Ermənistanda baş verən prosesləri şərh edən ekspertlər də, hesab edirlər ki, sabiq prezident Robert Koçaryanın həbsdən azad edilməsinin arxasında Rusiya amili dayanır. Lakin bir məqamı da vurğulamaq yerinə düşər ki, Nikol Paşinyan xalqa 1 mart hadisələrinin qurbanlarını məsuliyyətə cəlb edəcəyini vəd versə də, bu gün keçmiş müdafiə naziri Seyran Ohanyan azadlıqdadır. Sabiq prezident Serj Sarkisyan istədiyi an Qarabağdadır. Hətta Serjin Qarabağ klanına təsir imkanları qalmaqdadır. Xaçaturovu həbs edə bilmədi. Üstəlik, aprel müharibəsində baş qərargah rəisi olan və Yerevan ermənləri arasında nüfuzu aşağı olan şəxsi yenidən özünə baş qərargah rəisi təyin etməyə məcbur oldu.

Göründüyü kimi, Nikol Paşinyanın Qarabağ klanının qarşısında zəifliyi ortadadır. Bu gün Robert Koçaryanın həbsdən azadlığı çıxması Ermənistanda yeni siyasi proseslərə start vermiş oldu. Siyasi politoloqların sözlərinə görə, gələn il qondarma rejimdə keçirilən seçkilərdə Koçaryana orada rejimin başına gətirilə bilər. O da bildirilir ki, baş verən ssenarilər Kremldən idarə olunur və Nikol Paşinyan üçün siyasi gərginlik dövrü başlayır. Ermənistanda baş verənlər Qarabağ danışıqlarında Nikol Paşinyanın daha da sərt mövqe tutmasına gətirəcək. Ümumiyyətlə, Nikol Paşinyan danışıqlarda Qarabağ klanından çəkindiyi üçün heç bir kompromis variantla razılaşmayacaq.

### Qarabağ klanı əks inqilab çevrilişi hazırlayır

Beləliklə, Ermənistanda baş verən proseslərə nəzər yetirdikdə, hətta hakimiyyət çevrilişinin baş verəcəyi də aydın görünür. Ermənistanda cərəyan edən prosesləri şərh edən ekspertlər də, hesab edirlər ki, sabiq prezident Robert Koçaryanın həbsdən azad edilməsinin arxasında Rusiya amili dayanır. Politoloqlar bildirirlər ki, Ermənistanın yüksək instansiya məhkəməsi Robert Koçaryanın azadlığına Qarabağ klanı - başda Arkadi Qukasyan, Bako Saakyan zamin durublar. Uzun müddətdir, Nikol Paşinyana Robert Koçaryanla bağlı təzyiqlər artmışdı. Hətta Qarabağda keçirilən 9 may tədbirinə Qarabağ separatçıları Robert Koçaryanın da iştirak etməsini tələb edirdilər. Lakin Nikol Paşinyan bu qərarla razılaşmadı. Robert Koçaryanın uzun müddətdən sonra azadlığa buraxılması, Nikol Paşinyan üçün mənfi dividenddi.

Bir məqamı da vurğulamaq lazımdır ki, Nikol Paşinyan üçün Robert Koçaryanın həbsdə qalması olduqca vacib idi. Lakin görünən odur ki, Qarabağ klanı təzyiqləri maksimum surətdə artırır. Qarabağ klanının isə, bəllidir ki, birbaşa Kremlə yaxınlığı var. Moskva Qarabağ separatçılarından Paşinyana qarşı təzyiq kimi istifadə edir. Paşinyanın Qarabağın danışıqlarda iştirakını təkidlə qeyd etməsi, həmçinin, oğlunu Qarabağda xidmətə göndərməsi, son çıxışında isə, "Əgər Qarabağ danışıqlarda iştirak etmirsə, deməli, onu Ermənistan ərazisi sayırsız, o zaman sənədlərdə qeyd edək" kimi çıxışı birbaşa daxili auditoriya üçün hesablanıb. Son dövrlər daxildə Nikol Paşinyana qarşı yeni siyasi partiyanın yaradılacağı da qeyd edilir. Parlament tərkibində "Mənim Addımım" bloku ilə Çarukyan bloku arasında müxtəlif gərginliklər var. Nikol Paşinyan ciddi təzyiqlər altındadır. Onun tez-tez Rusiyaya səfər etməsinin ən əsas səbəbi, Şimal qonşumuzla münasibətləri nizama salmaq və gələn təhdidləri önləmək üçündür. Lakin görünən odur ki, Moskva yenidən Qarabağ kartından daxildə Paşinyana qarşı istifadə etməyə çalışır".

Siyasi politoloq Kamran Sultanlı isə, bildirib ki, 2020-ci ildə Qarabağ separatçıları prezident seçkiləri keçirəcək. İndiki prezident Bako Saakyan prezidentliyə namizəd olmayacağını açıqlayıb: "Ola bilər ki, ya Qukasyan, ya da Koçaryanın özü prezidentliyə namizəd kimi seçkilərə qatılsın. Bu zaman Nikol Paşinyana qarşı Qarabağ klanı özünün keçmiş lideri ilə yenidən geri qayıda bilər. 1997-ci ildə Koçaryan, məhz Qondarma Qarabağ prezidenti kimi Ter-Petrosyanı devirdi, Ermənistan konsitutsiyasını pozaraq prezident seçildi. Qarabağ klanı prezidentləri devirmək yönündə böyük təcrübəyə malikdir. Bu zaman Nikol Paşinyan üçün də, bu ssenari keçərlidir. Bu ssenarinin arxasında isə Dağlıq Qarabağ ətrafında siyasi strategiyasını quran daşnakların, Qarabağ klanının və onların əsas dəstəkçisi Rusiyanın olduğunu düşünürəm. Təbii ki, Nikol Paşinyanın müdafiə qalxanı olan xalqın onun arxasında qalıb-qalmayacağı onun gələcəyini müəyyən edəcək. Robert Koçaryanın azadlığı onun üçün mənfi dividendə çevrilə bilər. Bu, həmçinin, gələcəkdə Dağlıq Qarabağ üzrə danışıqlara da maneçilik törədə bilər".

Cənubi Qafqazda Sülh və Təhlükəsizlik İnstitutunun rəhbəri, politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ermənistan baş naziri Nikol Paşinyan ikinci inqilab anonsu verməklə, ona qarşı əks inqilabın hazırlanmasını önləməyi planlayır. Politoloqun sözlərinə görə, həbsdən azad edilən Robert Koçaryan Moskvanın təlimatı ilə Qarabağ klanını ətrafında sıx birləşdirib, Nikol Paşinyana qarşı hərəkətə keçəcək: "Robert Koçaryanın Rusiyaya getməməsi, həbsdən əvvəl və sonra Ermənistanda qalması əsasən, siyasi proseslərdə aktiv fəaliyyətə keçməsi üçün idi. Proseslər Nikol Paşinyanın əleyhinə işləyir və ona qarşı Qarabağ klanı əks inqilab hazırlayır. Qarabağ klanının qalib gəlmək şansı yoxdur. Çünki Ermənistan vətəndaşları aktiv şəkildə Nikol Paşinyanı müdafiə edəcək. Qarabağ klanı ordu vasitəsi ilə yalnız hakimiyyətə əl qoya bilər. Bu da, Ermənistanda qanlı vətəndaş qarşıdurmasına gətirə bilər.

Göründüyü kimi, Nikol Paşinyanın Qarabağ klanının qarşısında zəifliyi ortadadır. Onun nümayişlərə start verməsi hüquq sistemində və məhkəmə sahəsində dəyişikliklərə gətirəcək. Nikol Paşinyanın səhv siyasəti bu gün onun devrilməsini gündəmə gətirib".

Məhəmməd Əsədullazadə, hesab edir ki, Robert Koçaryanın həbsdən azadlığa çıxması Ermənistanda yeni siyasi proseslərə start vermiş oldu: "Gələn il qondarma rejimdə keçirilən seçkilərdə Koçaryan orada rejimin başına gətirilə bilər. Baş verən ssenarilər Kremldən idarə olunur və Nikol Paşinyan üçün siyasi gərginlik dövrü başlayır. Ermənistanda baş verənlər Qarabağ danışıqlarında Nikol Paşinyanın daha da sərt mövqe tutmasına gətirəcək. Ümumiyyətlə, Nikol Paşinyan danışıqlarda Qarabağ klanından çəkindiyi üçün heç bir kompromis variantla razılaşmayacaq".

Politoloq Elxan Şahinoğlu Ermənistanda baş verən bu qarışıqla bağlı bildirib ki, Robert Koçaryanın gözlənilmədən həbsdən azad edilməsi "Qarabağ klanı"nın gücünü göstərir: "Ermənistanda bir hakim tapılmadı ki, Koçaryanın həbs müddətini uzatsın. Onun məhkəməsini aparmaqdan, ən az, 3 hakim imtina etmişdi, məhkəməni aparmağa razılaşan sonuncu hakim isə "Qarabağ klanı"nın liderini həbsdən azad etməyə qərar verdi. Çünki həmin hakim Koçaryan və onun arxasındakı güclərin hazırkı baş nazir Nikol Paşinyandan güclü olduğunu düşünür. Həmin hakim özünün və ailəsinin gələcəyini təhlükə altına atmamaq üçün belə qərar çıxarıb".

Politoloq, ikinci səbəb kimi, Rusiya amilinin Ermənistanda və Dağlıq Qarabağda gücünü göstərib: "Koçaryanın həbsi onun dostu - Rusiya Prezidenti Vladimir Putini narahat edirdi. Putin bir neçə dəfə Paşinyana mesaj göndərmişdi ki, "dostumu azad et". Paşinyan hər dəfə bu mesajı qulaqardına vururdu. Ancaq məhkəmə Kremlin mesajını qulaqardına vurmadı. Paşinyanın yox, Rusiyanın maraqlarını nəzərə aldı. Bu mənada, Koçaryanın azad edilməsi həm də Putinin Paşinyan üzərində qələbəsidir. Üçüncüsü, Koçaryanın həbsdən azad edilməsi Ermənistanda Paşinyanla eks-prezident arasındakı mübarizənin yeni və gərgin mərhələyə qədəm qoyacağını göstərir. Koçaryan "Qarabağ klanı"nın əsas fiqurudur və iki gücün - Moskvanın və Xankəndidəki separatçıların dəstəyinə arxayındır".

Bununla yanaşı, erməni mediası yazır ki, yaşananlar arasında ən təhlükəli məqam Qarabağ separatçıları ilə Ermənistan arasında münasibətlərin gərginləşməsidir.

Digər politoloq Qabil Hüseynli isə hesab edir ki, hadisələrin hara doğru gedəcəyini söyləmək çətindir: "İndi etirazçılar Ali Məhkəməni mühasirəyə alıblar. Amma bunlar Paşinyanın elektorat bazasına daxil olan adamlardır. Onlar, sadəcə olaraq, Koçaryanın yenidən həbsə qaytarılmasını tələb edirlər. Aydındır ki, Koçaryan azadlığa buraxılıbsa, Sarkisyan da hadisələrə kənardan dəstək verirsə, bütün Qarabağ klanı ayaq üstədir və Ermənistanda ciddi qarşıdurma prosesi gedir. Bu proseslərə müqavimət göstərilməzsə, böyüyüb toqquşmalara gətirib çıxara bilər. Gələcək bundan daha rəngarəng hadisələrin meydana çıxacağına şəhadət verir".

***A.SƏMƏDOVA***

# Paşinyan əleyhinə "Qarabağ" toplantısı keçirilib

Ermənistanda iş adamlarından birinin evində bu günlərdə Dağlıq Qarabağın keçmiş hərbi dairələrinin nümayəndələrinin və Ermənistanın oligarxlarının görüşü keçirilib və görüş əsnasında ölkədəki daxili siyasi vəziyyət müzakirə edilib. SİA-nın məlumatına görə bu barədə rusarminfo.ru saytı "Jamanak" qəzetinə istinadən məlumat dərc edib.



"Jamanak" qəzeti yazır ki, yığıncaq Dağlıq Qarabağın eks müdafiə naziri Samvel Karapetyan tərəfindən təşkil olunub və iştirakçılar Nikol Paşinyan hökumətini devirmək üçün hər şeyi etməyə and içiblər.

Yazıda o da qeyd olunur ki, toplantıda Ermənistanın tanınmış iş adamlarından biri, Samvel Aleksanyan da iştirak edib. Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan demişdi ki, əgər bəzi insanlar Dağlıq Qarabağı əks inqlab ocağına çevirməyə cəhd edərlərsə, o zaman xalq Dağlıq Qarabağı inqlab mərkəzinə edər.

***İnam Hacıyev***

TƏRS BAXIŞ

# Siyasi ləçərliyin bir adı var - Xədicə İsmayıl!

***UEFA-nın Bakıda keçiriləcək ingilis derbisi ərəfəsində, erməni əsilli Henrix Mxitaryanın futbolu siyasətə qatması cəhdinin ardınca, yəni açıq-aşkar erməni fahişəliyi sərgiləyərək, hətta ona təhlükəsizlik təminatının veriləcəyi ilə bağlı vədlərə rəğmən, onun öz ətrafında süni səs-küy, ajiotaj yaratması, əslində, anlaşılan bir məsələdir. Yəni burada görünən odur ki, Mxitaryan bir erməni-dir və həmin ermənilərdəndir ki, özlərini dünya ictimaiyyətinə "çoxsaylı əzablar çəkmiş xalq" kimi təqdim edərək, onlara məxsus olmayan torpaqlara, mədəniyyətlərə, mətbəxlərə göz dikirlər və özününküləşdirirlər. Mxitaryan, belə Mxitaryandır...***


Khadija Ismayil
29 мин. •

Münaqişəni uzadırlar ki, hərbi büdcəni yeyib, pul qazansınlar, buna etiraz edən adamların üstünə vətənpərvərlik adı altında saçyolanları göndərirlər.
Adamların vətənə sevgisindən sui istifadə edib bayraq dirəyində pul yedilər, biabırçı cinayət törətmiş Ramil Səfərovun üzərindən seçkiqabağı xal qazandılar.

Bu gün Mxitaryana görə üz-gözlərini cırıb, tumanlarını başlarına çəkən, milli maraqlarımıza qarşı çıxan və özlərini "azərbaycanlı" adlandıranların ortalıqda var-gəl etmələri, həqiqətən də, hiddət doğurur. Axı bir ölkənin havasına-suyuna və çörəyinə qarşı bu qədər həyasızcasına, fahişəcəsinə xəyanət etməklə, həmin xəyanətlərinin əvəzinə isə, ağızlarına erməni "xamırı" atmaqla, nə qazanacaqlar belələri?! Əlbəttə ki, kin, nifrət və haqq elədikləri həqarət!

## Bu təlimat artıq ona verilib

Əbəs deyil ki, məhz aşkar siyasi, eləcə də, fiziki ləçərliyin bariz nümunəsi olan Xədicə İsmayıl bu dəfə də özünü erməni aşnalarının altına yıxmağı borc bilib. Axı, ortada Azərbaycan dövlətinin dünya miqyasında yüksələn maraqları var və bu maraqlara qarşı hər vəchlə ləçərlik, fahişəlik etmək lazımdır - bu təlimat artıq ona verilib. Ona görə də, dərhal keçib klaviatura arxasına Mxitaryanla bağlı ingilis dilində status paylaşdı, adını da qoydu ki, erməni futbolçunun Bakıya gəlməməsi rasizmdir, yəni irqçilikdir (?!). Amma Azərbaycanın erməni futbolçusunun təhlükəsizliyinə verdiyi zəmanətindən sonra həmin futbolçunun Bakıya gəlməmək qərarında israrlı olması, bayaq da qeyd elədiyimiz kimi, erməni həyasızlığının ənənəvi nümunəsi oldu. Fəqət, X.İsmayıl bu barədə bir kəlmə də olsun status paylaşmadı, üstəlik, hər şey üzə çıxandan sonra bəlli statusunu da silmədi (?!). Bilirsinizmi niyə? Ona görə ki, əgər silsəydi həmin o beş-üç kəlməsinə görə hay aşnaları onun ağzına işlənmiş erməni prezervativini tullamazdılar!

## İşlənmiş erməni prezervativləri Xədicənin çox xoşuna gəlib

İndi isə keçək digər məsələyə. Məsələ ondadır ki, həmin bu siyasiləşmiş ləçər Xədicə erməni aşnalarının daha da xoşlarına getmək üçün növbəti statusunu paylaşıb və həmin statusunda bir neçə qərəzli, şər-böhtanlı iddiaları ilə yanaşı, qəhrəman zabitimiz, bayrağımızı təhqir edən erməniyə yerindəcə haqq elədiyi cəzasını verən Ramil Səfərovu "biabırçı cinayət törədən şəxs" kimi göstərib. Yəqin işlənmiş erməni prezervativləri Xədicənin çox xoşuna gəlib və necə deyərlər, dadı damağında qalıb.

Yeri gəlmişkən, biz onu da xatırlaya bilərik ki, bu il martın 8-də küçəyə çıxıb aksiya keçirərkən, digər milli qəhrəmanımız, şəhid Mübariz İbrahimovu "qatil" adlandıran Nərmin Şahmarzadə də onun yanında olub. Burada isə, eşşəyin anqırıb, öz tayını tapması məsəli yada düşür. Ona görə xatırlatdım ki, bu gün cəmiyyətimizdə, bax belə ləçərlər də var və onların qanunamüvafiq cavabları yerindəcə verilməlidir. Verilmədikcə, onlar daha da azğınlaşır, ləçərləşir, fahişələşirlər. Ən azından, biz Xədicənin bu şər-böhtanlı statusuna görə məhkəmədə cavab verməsini çox, amma çox arzu edərdik!

***Rövşən RƏSULOV***

***P.S. Ləçərliyin isə bir adı var - Xədicə İsmayıl! Ona görə ki, idbarlıq və xainlik simvolu onun pozğun sifətinə möhür tək vurulub***

AMNESTY INTERNATIONAL

# İnsan haqlarını gözdən salan ikili standartlar

*Və yaxud "Amnesty İnterntional", "Transparency İnternational", "Human Rights Watch"- üç meymun oyunu*

Yenə də eyni oyun, eyni qərəz. Azərbaycana qarşı qısaşçı yanaşmaları ilə məşhur olan "Amnesty İnterntional", "Transparency İnternational", "Human Rights Watch" adlı bu üç qərəzli təşkilat meymun oyunu oynamağa başlayıb. Bakıda keçiriləcək Avropa Liqasının final mərhələsinin tarixi yaxınlaşdıqca, bu təşkilatların Azərbaycana qarşı siyasi rıçaq olaraq istifadə edilməsi, o qədər də təəccüblü deyil. Çünki hər belə tədbir öncəsi, bu üç meymun oyunu oynayanların hamısı böhtan və qərəzli hesabatlarla çıxış edirlər. İndi də "Amnesty İnterntional" təşkilatı Azərbaycanda Avropa Liqasının finalının keçirilməsini pisləyərək, bunu ölkədə insan haqlarının vəziyyəti ilə əlaqələndirib. Bu da təəccüb doğurmur. Çünki istər "Amnesty İnternational" olsun, istərsə də digər qərəzli təşkilatlar, sanki bəyanat və hesabatlarını öncədən hazır vəziyyətdə saxlayaraq, bəlli məqamlarda açıb, bir-iki düzəlişlər edir, sözügedən şər-böhtanlarını ictimailəşdirir. Bütün bunların əvəzində isə, "qara piar"ına görə "zəhməthaqqını", yəni rüşvətlərini alırlar.

Əslində, bu qərəzli təşkilatların fəaliyyətləri, hesabatları bu təşkilatın müəyyən siyasi maraqlara xidmət etdiyini və ayrı-ayrı ölkələrlə, o cümlədən, Azərbaycanla bağlı, konkret olaraq, sifariş yerinə yetirdiyini göstərir. Bu təşkilatları beynəlxalq səviyyəli hüquq-müdafiə təşkilatı adlandırmağın özü insan haqlarına hörmətsizlikdir. İnsan haqlarının müdafiəsi adı altında gizlənən bu təşkilat, əslində, öz məkrli fəaliyyəti ilə insan hüquqlarının aliliyi prinsipinin, insanların təhlükəsiz yaşamaq hüququnun təmin edilməsinə böyük zərbə vurur. Belə olan halda, qondarma və işğalçı rejimi "qismən azad" ərazi kimi göstərmək istəyən "Amnesty İnterntional" həmin rejimin Dağlıq Qarabağdakı erməni əhalisini də qorxu altında saxladığını bilməmiş deyil. Burada insan haqlarından və azadlıqlarından danışmağına dəyməz. Bu ərazi, faktiki olaraq, Ermənistanın işğalçı rejiminin və ona himayə edən dairələrin bir poliqonudur, narkotik maddələr istehsal edən, quldurluqla məşğul olan və kriminallaşmış bir ərazidir. "Amnesty İnterntional" isə, öz hesabatında o qədər ermənipərəst mövqedən çıxış edir ki, Ermənistan kimi bir rejimi də "qismən azad" ölkələr sırasına daxil edir.

Heç kim, heç bir qüvvə Azərbaycanı öz tutduğu inkişaf və demokratiya yolundan döndərə bilməz. Bu yol Azərbycan xalqının və Azərbaycan dövlətinin öz seçimidir. Bu yolu biz özümüz şüurlu olaraq seçmişik və ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə də inamla gələcəyə doğru irəliləyirik. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz və bu yöndəki cəhdlər də heç bir səmərə verməyəcəkdir. Bəli, bütün bu faktlar, bir daha göstərir ki, "Amnesty İnterntional" və bu qəbildən olan digər meymun oyunu oynayan beynəlxalq təşkilatlar, əslində, insan hüquqlarının müdafiəsi üçün deyil, müxtəlif ölkələrə təzyiq vasitəsi kimi yaradılıb.

Onların heç biri Azərbaycanı öz yolundan, müstəqil, dövlət maraqlarına, xalqın milli mənafeyinə əsaslanan siyasətindən döndərə bilməz. Bütövlükdə isə, Azərbaycan xalqının böyük əksəriyyəti ölkədə reallığın nə olduğunu yaxşı bilir. Qanuna hörmət edən hər bir şəxs ölkəmizdə yaşayıb-yaradıb, təhsil alıb, işləyə bilir. Ölkəmizdə dini tolerantlıq, multikulturalizm dəyərlərinin qorunub-inkişaf etdirilməsi ən aparıcı Qərb ölkələrinə nümunə və örnəkdir. O cümlədən, Azərbaycan demokratik - hüquqi dövlət olmaqla, demokratiya uğrunda apardığı işləri davam etdirir. Bu cür ermənipərəst təşkilatların qondarma hesabatları isə, həm onların, həm də onlara dəstək göstərən "sapı özümüzdən olan baltaların" iç üzünü, kirli maraq və siyasi həyasızlıq məramlarını ortaya qoyur.

***Rəfiqə HÜSEYNOVA***

# "Futbol üzərindən Azərbaycana qarşı qurulan plan iflasa uğradı"

***"İndiyə qədər ortaya atılan bəhanələrin guya azarkeşlərin Bakıya gəlməkdən imtina etməsi xəbəri ilə yekunlaşacağını əvvəldən ehtimal etmək mümkün idi". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. Anti-milli dairələr Azərbaycanın beynəlxalq nüfuzunu gözdən salmaq üçün paytaxt Bakının təhlükəli şəhər olmasını, təyyarə biletlərinin bahalığını, "Arsenal"ın erməni əsilli oyunçusunun həyatına qarşı təhlükə gözlənilməsini və sair bu kimi yalanları dövriyyəyə buraxıldığını deyən baş redaktorun sözlərinə görə, bununla həmin qüvvələr sübut etməyə çalışdılar ki, guya bu cür beynəlxalq əhəmiyyətli tədbirlərin Azərbaycanda keçirilməsi olduqca risklidir.***

A.Quliyev təəssüflə söyləyib ki, Böyük Britaniyanın Xarici İşlər Nazirliyi də yaydığı bəyanat ilə bu kampaniyada hansısa formada yer aldı: "Lakin bütün bunların heç biri gözlənilən nəticəni vermədi. Nə "Arsenal" və "Çelsi"nin futbolçuları, nə də azarkeşlər Bakıya gəlməkdən imtina etmədilər. Əksinə, dünyanın, o cümlədən Avropanın, Asiyanın futbol azarkeşləri Bakıda möhtəşəm idman yarışını izləməkdən böyük zövq alacaqlarını ifadə etdilər. Beləliklə də bir tərəfdən erməni barmağı, digər tərəfdən Azərbaycana qarşı düşmən münasibəti sərgiləyən bəzi dairələrin, güc mərkəzlərinin futbol oyunu üzərindən Azərbaycana qarşı qurduqları plan iflasa uğradı".



Siyasi ekspert qeyd edib ki, bununla kifayətlənməyən anti-Azərbaycan şəbəkə bəzi Avropa strukturlarında ölkəmiz əleyhinə qərarların qəbul edilməsinə də cəhdlər edib: "Hətta bu məqsədlə xaricdəki bəzi radikal qüvvələri, o cümlədən onların sırasında yer alan "sapı özümüzdən olan baltaları" futbol mövzusunda aktivləşdirməyə çalışdılar. Onların bu cəhdi də uğursuz oldu. İndi də azarkeşlərin guya aldıqları biletdən imtina etməsi, biletlərin satılmaması barədə dezinformasiyaları dövriyyəyə buraxıblar. Belə "xəbərlər" futbolun - idman yarışının siyasiləşdirilməsi fonunda Azərbaycana zərbə vurmaq niyyəti güdür. Bu, qeyd edilən addımı atan beynəlxalq dairələrin tamamilə iflasının göstəricisidir. Azərbaycan xalqı və dövləti heç bir halda belə kampaniyalarla ruhdan düşmür. Bu kimi beynəlxalq tədbirlərin ən yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan uzun illər ərzində zəngin təcrübəyə yiyələnib. Azərbaycan ictimaiyyətinin də final oyununa böyük marağı var. Bu idman yarışının təhlükəsiz şəraitdə keçməsi üçün ölkənin hüquq-mühafizə orqanları, təhlükəsizlik qüvvələri də tam gücü ilə səfərbər olunublar. Əminəm ki, azarkeşlər tam təhlükəsiz şəraitdə həm möhtəşəm bir oyundan, həm də şəhərimizin gözəlliklərindən böyük zövq alacaqlar".

***Nailə Məhərrəmova***

# Xaricdə zibillikdə eşələnənlər bu dövlətin və xalqın ayağına gələcəklər

## Qurban Məmmədov heyvani düşüncəsini bir daha sübut etdi

***Başqa cür də ola bilməz. Özünü "səviyyəli siyasətçi" hesab edən saxta yollarla Avropa və Qərb ölkələrinə səpələnib, "siyasi mühacir" adı altında Azərbaycan əleyhinə fəaliyyət göstərən satqınlar yığnağı, nəinki ölkəmizdə aparılan inqilabi islahatlardan kəskin qorxuya düşüb, indi də xalqı təhqir etməyə başlayıblar.***



Xalqın dövlətin apardığı siyasətə dəstəyi və hakimiyyət-xalq birliyinin daha da möhkəmlənməsindən qorxuya düşən bu səviyyəsiz vətən xainləri, doğrudan da, mənəviyyatsız və əxlaqsızlardır. Görünür, qudurublar, ancaq quduranda da sonda quduzlaşırsan. Məsələn, Londonda "siyasi mühacirlik" edən Qurban Məmmədov xalqı təhqir etməsi, artıq onun quduzlaşdığını göstərir. Ancaq anlamır ki, xalqı təhqir etmək ona çox baha başa gələcək, ay qudurğan! Neçə müddətdir ki, sosial şəbəkələr vasitəsilə insanları hakimiyyət əleyhinə kütləvi itaətsizliyə çağırışlar edən Q.Məmmədov, sonda eşşəksayağı düşüncəsinə cavab ala bilməyib və aqressivləşərək, xalqı "eşşək düşüncəli" adlandırmağa başlayıb.

Q.Məmmədov əyaqətsizcəsinə "xalqın 90 faizi heyvan kimi düşüncəyə malikdir" deyir: "Mənim zəvzələmələrimin xeyri yoxdursa, daha burada işimi-gücümü atıb, danışmağımın nə xeyri var. Neçə müddətdir ki, apardığım söhbətlərə ciddi reaksiya verən yoxdur. Mən görürəm ki, nə paylaşım var, nə artım var... Xalqın 90 faizi heyvan kimi düşünür, hadisələrə heyvan kimi yanaşır..."

Əslində, özünü "hacı", yaxud "siyasətçi" hesab edən Q.Məmmədovun milyonlarla insanın haqqına girib, təhqir etməsi, özünün nə qədər heyvani hisslərə malik olduğunun aşkar göstəricisidir. Sosial şəbəkədə, özünün də dediyi kimi, zəvzəmələrini paylaşmayanları, dəstək göstərməyənləri təhqir edən bu heyvan xislətli ünsür, yəqin işlətdiyi ifadələrinin yenidən özünə qayıdacağının fərqinə varmayıb...

### Qardaşı Sərdar Cəlaloğlu dəli ünsürə görə, "qurunun oduna yaş niyə yanmalıdır" deyib

Doğru sözə nə deyəsən? Elə, məhz buna görə də, ADP sədri Sərdar Cəlaloğlu sinəsini kənara çəkib. Q.Məmmədov da bildirib ki, mən S.Cəlaloğluya ona görə inanmıram ki, o da, 90 faiz heyvan kimi düşünənlərdəndir: "Siyasətdən kənarda, o, mənim qardaşım olsa da, siyasi və milli maraqlarda ona güvənmirəm, nə də güzəşt etmirəm. Mən baxışlarımda səhv də edə bilərəm, ancaq belə düşünürəm".

S.Cəlaloğlu da bildirib ki, "Q.Məmmədovdan, zatən başqa münasibəti gözləməyə də dəyməzdi. Çünki onun üçün mənəviyyat, ləyaqət və şərəf kimi məfhumlar tamamilə yaddır! Xalqı təhqir etmək təfəkkürü, bütünlüklə mənəviyyatı pozulmuş xəstə ünsürlülərə xas olan xüsusiyyətdir".

Q.Məmmədov da, qardaşına belə güzəştə getməyəcəyini deyərək, S.Cəlaloğlunu psixoloji xəstəlik yaşayan ünsür adlandırıb. Q.Məmmədov yalnız xalqı təhqir etməyib, həmçinin, hədəfdə radikal müxalifət düşərgəsinin təmsilçilərinin də olmasını deyib: "Milli Şura"nın sədri Cəmil Həsənlini hədəfə alan Q.Məmmədov AXCP sədri Əli Kərimlini də təhqirlərinin gözünə qatıb, onlara qarşı ən ağır söyüşləri söysə də, qarşı tərəfdən də eyni təhqirli cavab alıb.

### Cəmil Həsənli: "Qurban Məmmədov yaş fıstıq kösövü kimi tüstülənib, sonda elə yanacaq ki..."

Belə ki, Q.Məmmədovun "Milli Şura" rəhbərliyinə qarşı ittihamlarına qurumun sədri C.Həsənli öz "facebook" səhifəsində cavab verib: "Qurban Məmmədov hələ çox yanacaq. 6 aydır, bu adam yaş fıstıq kösövü kimi hey tüstülənir və bu bədbəxt tüstülənə-tüstülənə elə yanacaq ki, söndürən belə olmayacaq. Və bombaları təcrübəli qaradavoy Kərbəlayi Zalın "dom Feyzulla"sının evindən tapdığı qarpızlardan da boş çıxacaq. Çünki gerçəkdən adam xəstədir. Dünən dediyi bütün yalan, böhtan və uydurmalardan sonra fatihə surəsini avazla səsləndirməsi, bu adamın, insanların dini hissləri ilə oynayan bir din tüccarı olmasından, xalqın xilası missiyasının, guya ona verilməsi kimi sərsəmlərindən xəbər verir. Danışığından belə məlum olur ki, bəs ölkənin siyasi mühitində hamı suya düşüb, bir dənə bu sudan quru çıxıb ki, bu missiyanı daşısın. Allah şəfa versin!"

Bu yerdə yaxşı deyiblər, Qəribi ağlamaq tutur. Doğrusu, mat-məəttəl qalmışam bunlara. Kim-kimə ağıl verir, kim-kimə şəfa diləyir. Bunların elə hamısı dəlidir. Onda belə satqın ünsürləri düz yola gəlsinlər. O da, mümkün deyil. Qurban Məmmədov da nə artistdir, nə də dəli. Dədə Qorquddan çox, Yalıncıq və Məşədi İbaddan çox, onun hambalıdır. Ən əsası isə, mənəviyyatsız, əxlaqsız, satqın və satılanlardır. Onu yaxşı anlamalıdırlar ki, xaricdə zibillikdə eşələnən bu satqınlar yaxın zamanda bu dövlətin və xalqın ayağına yalvara-yalvara gələcəklər. Bax, sonda nə olaraq, bunu zaman göstərəcək!

**R.HÜSEYNOVA**

### Erməni lobbisinə işləyən korrupsionerləşmiş siyasi məqsədli təşkilatları hərəkətə keçirib

# "Amnesty İnternational" - qərəzlilik mərəzliyi

## Bu təşkilat sanki bəyanat və hesabatlarını hazır vəziyyətdə saxlayır və bəlli məqamlarda rəflərindəki qovluqları açıb, bir-iki düzəlişlər edib, sözügedən şər-böhtanlarını ictimailəşdirir

***Bakıda keçirilən UEFA Liqasının finalı ilə bağlı bir sıra qərəzli mərkəzlər Azərbaycana qarşı qarayaxma, şər-böhtan xarakterli hücumlarını dayandırmırlar. Əslində, belə bir münasibətin olacağı daha əvvəlcədən məlum idi. Çünki ölkəmizdə istənilən bu kimi böyük və beynəlxalq əhəmiyyətli tədbirlər ərəfəsi müxtəlif cinahlardan bənzər hücumlara startlar verilir.***




Əlbəttə, bu cür hücumlar qərəzli mərkəzlərin istəklərini reallaşdırmır, yəni onlar, sözün həqiqi mənasında, məğlub olub, geri çəkilməyə məcbur qalırlar. Lakin fakt budur ki, hər belə tədbir öncəsi, bu mərkəzlər Azərbaycandakı dağıdıcı müxalifətlə və onların xarici ölkələrdəki satellitləri ilə daxillərində quduzluq hisslərini cilovlaya bilmirlər. Bu baxımdan, indi də "Amnesty İnternational" təşkilatı Azərbaycanda Avropa Liqasının finalının keçirilməsini pisləyib və bunu ölkədə insan haqlarının vəziyyəti ilə əlaqələndirib. Bəri başdan deyə bilərik ki, Azərbaycanda insan haqları, hətta ən aparıcı Qərb ölkələrindən də üstün şəkildə qorunur və Avropanın, ABŞ-ın böyük meqapolislərində polislərin müxtəlif məqsədli etirazçılara qarşı amansız davranışları, hətta vəhşi üsullara əl atmaları Azərbaycanda mövcud deyil. Ölkəmizdə məscidlərə, kilsələrə, sinaqoqlara silahlı hücumlar və irqçilik meyilləri yoxdur.

### Belə çirkli reputasiyaya malik bir təşkilatın kimisə ittiham etməyə, ədalət, şəffaflıq və demokratiyadan danışmağa, ümumiyyətlə, haqqı yoxdur

Daha bir fakt budur ki, bu təşkilat korrupsiyada adı hallanan, müxtəlif mənbələrdən sifarişlər alaraq, onları yerinə yetirən qurum imicini qazanıb. Ona görə də, müxtəlif maraqlı xarici qüvvələrin əlində müstəqil siyasət yürüdən ölkələrə qarşı təzyiq vasitəsi funksiyasını yerinə yetirir. Belə çirkli reputasiyaya malik bir təşkilatın kimisə ittiham etməyə, ədalətdən, şəffaflıqdan, demokratiyadan danışmağa isə, ümumiyyətlə, haqqı yoxdur. Əbəs deyil ki, "Amnesty İnternational" təşkilatı sanki bəyanat və hesabatlarını hazır vəziyyətdə saxlayır və bəlli məqamlarda rəflərindəki qovluqları açıb, bir-iki düzəlişlər edib, sözügedən şər-böhtanlarını ictimailəşdirir. Bütün bunların əvəzində isə, "qara piar"ına görə "zəhməthaqqını", yəni rüşvətini alır.

Heç də təsadüfi deyil ki, istər "Amnesty İnternational" olsun, istərsə də digər bu kimi təşkilatların hər birinin sifarişçisinin əsasında erməni lobbisinin dayandığı barədə kifayət qədər faktlar ictimai rəyin diqqətinə çatdırılıb. Ona görə də, UEFA faktoru da daxil olmaqla, Azərbaycanın uğur və inkişafı, ölkəmizin, demək olar ki, bütün beynəlxalq tədbirlərdə öncül yerlərdən birini tutması erməni lobbisinə işləyən korrupsionerləşmiş siyasi məqsədli təşkilatları hərəkətə keçirib.

Biz, elə də uzağa getməyərək, "Amnesty İnternational"ın I Avropa Oyunlarının boykot edilməsi çağırışı ilə çıxış etməsini də xatırlaya bilərik. O cümlədən, "Eurovision-2012" musiqi yarışması ərəfəsində də, bu və bu kimi digər erməni lobbisinin təlimatları ilə işləyən təşkilatların "qara piar" kampaniyalarına qoşularaq, ölkəmizin nüfuzuna ləkə yaxmağa cəhd etmələrini xatırlaya bilərik. Göründüyü kimi, heç bir boykot çağırışları onların istədiyi nəticələri vermədi və Azərbaycan bütün dünyaya sübut etdi ki, buradakı demokratik və müstəqillik mühiti bir çox nüfuzlu Avropa dövlətlərini də üstələməkdədir. Eləcə də, UEFA Liqası başa çatdıqdan sonra da bəlli qərəzli qurumlar tısbağa kimi qınlarına çəkilib, Azərbaycanın növbəti uğur saatını gözləməyə başlayacaqlar.

### Bu dəfə də belə olacağına isə kimsənin şübhəsi yoxdur

Qeyd etdiyimiz kimi, burada ermənipərəst qurumların rolu ilə yanaşı, erməni dəyirmanına su tökən radikal müxalifət ünsürlərinin də rolları mövcuddur. Söz yox ki, dağıdıcı müxalifət də öz qərbli ağalarının verdikləri sifarişi həyata keçirməkdən ötrü əllərində olan mətbuatla çıxışlar edir, ən rəzil üsullara əl atmaqdan belə çəkinmirlər. Nəticədə, bu kimi fikirləri nəzərdən keçirərkən, bir daha qənaətə gəlmək olar ki, "Amnesty İnternational"ın növbəti qərəzi və mərəzi elə özləri üçün də qalacaq. Çünki ən primitiv üsullarla dəfələrlə Azərbaycana qarşı qarayaxma kampaniyaları aparan bu təşkilat sonda susaraq, geri çəkilməyə məcbur olub. Bu dəfə də belə olacağına isə kimsənin şübhəsi yoxdur.

**Rövşən NURƏDDİNOĞLU**

# "Nar" aztəminatlı ailələrdən olan uşaqlara dəstək olur

"Nar"-ın dəstəyilə kimsəsiz və aztəminatlı ailələrdən olan uşaqlar üçün təşkil edilən peşəkar boks təlimləri davam edir. Artıq dördüncü ildir ki, keçirilən bu layihədə 200-dən çox tələbə iştirak edib. Təlimlər Azərbaycanın aparıcı boks klubu "Baku Fight Lab"-in dünya və Avropa çempionları tərəfindən keçirilir. Təlimlərdə iştirak edən gənc boksçuların və müəllimlərin peşəkar idman ləvazimatları "Nar" tərəfindən təşkil edilir.



Yeni mərhələnin başlaması münasibətilə keçirilən tədbir zamanı "Baku Fight Lab" klubunun İcraçı direktoru Fərhad Acalov "Nar"-a minnətdarlığını bildirib və gənclərin asudə vaxtının səmərəli keçirilməsində layihənin əhəmiyyətini vurğulayıb. Daha öncə layihədə iştirak edən tələbələrin qısa zaman ərzində respublika səviyyəsində fərqləndiyini qeyd edən F.Acalov təlimlərə yeni qatılan gənclərə uğurlar arzulayıb.

"Nar" gənclərə və idmana yönəlik korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq, artıq dördüncü ildir ki, boks təlimlərini davam etdirir. Layihənin əsas məqsədi kimsəsiz və aztəminatlı ailələrdən olan uşaqların asudə vaxtını səmərəli təşkil etmək və cəmiyyətə sağlam ruhlu fərdlər qazandırmaqdır.

# Avropa İnsan Hüquqları Məhkəməsi və presedent hüququ

***Məhkəmənin presedent hüququnda və ya Avropa Konvensiyasına qəbul ediləcək əlavə Protokol şəklində "uzanan hüquq pozuntusu" anlayışına dəqiq tərif verilməli və hansı halların məhkəmə tərəfindən "uzanan pozuntu" kimi qəbul edilməsinin kriteriyaları müəyyən edilməlidir.***

Məhkəmənin ərazi yurisdiksiyası ilə bağlı fikirləri ümumiləşdirərək, qeyd etmək olar ki, məhkəmənin presedent hüququna əsasən, "yurisdiksiya" termini iştirakçı-dövlətlərin milli ərazisi ilə məhdudlaşmır. Hakimiyyət orqanlarının fəaliyyəti nəticəsində, onun ərazi hüdudlarından kənarda baş vermiş nəticələrə görə də, dövlətin məsuliyyəti yarana bilər. Müvafiq olaraq, hərbi əməliyyatlar nəticəsində, dövlət milli sərhədlərindən kənarda olan ərazi üzərində səmərəli nəzarəti həyata keçirmək imkanı əldə etdikdə də, onun məsuliyyəti haqqında məsələ ortaya çıxa bilər.

Zaur Əliyev yazır: "Avropa Məhkəməsinin ərazi yurisdiksiyası (ratione loci) kontekstində Azərbaycanın işğal olunmuş ərazilərində insan hüquqlarının pozulmasına görə, Ermənistan dövlətinin məsuliyyəti məsələsi meydana çıxır. Belə ki, Azərbaycanın işğal edilmiş əraziləri üzərində faktiki nəzarəti həyata keçirdiyindən, həmin ərazidə insan hüquq və azadlıqlarının pozulmasına görə, məhz Ermənistan dövləti məsuliyyət daşıyır. Məcburi köçkünlərin müraciətlərinə gəlincə, məsələyə məhkəmənin ərazi yurisdiksiyası baxımından yanaşsaq, fikrimizcə, qarşı tərəfinratione loci ilə bağlı mümkün etirazı məhkəmə tərəfindən rədd edilməlidir. Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində pozuntulara görə, məsuliyyətdən qaçaraq, Dağlıq Qarabağda "yerli hakimiyyət orqanları"nın formalaşdığını və onun "müstəqil dövlət" olduğunu əsas gətirə bilər."

Məhkəmənin presedent hüququ, onu deməyə əsas verir ki, məhkəmə belə etirazları rədd edir (məsələn, Loizidu işində olduğu kimi). Belə ki, "Dağlıq Qarabağ" dövlət kimi dünya birliyi, hər hansı bir beynəlxalq təşkilat və ya dövlət tərəfindən (hətta Ermənistanın özü tərəfindən belə) tanınmamışdır. Bu gün dünya dövlətləri, universal və regional beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu qeyd-şərtsiz qəbul edilir. Beləliklə, yuxarıda deyilənlərə əsasən, qeyd etmək olar ki, Ermənistan, işğal altında olan Dağlıq Qarabağa və ətraf ərazilərə effekti hərbi və siyasi nəzarət həyata keçirdiyindən, beynəlxalq hüquq normalarına və AİHM-in presedent hüququna əsasən, Dağlıq Qarabağda idarəçiliyin qanunsuz və qondarma rejim tərəfindən həyata keçirilməsi bəhanəsi ilə məsuliyyətdən yayına bilməz. Məhkəmənin ərazi yurisdiksiyası baxımından, işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur.

Z.Əliyev göstərir ki, AİHM-in məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası haqqında deyilənləri yekunlaşdıraraq, qeyd etmək olar ki, Avropa Məhkəməsinin məsləhət rəyləri verilməsi sahəsində fəaliyyəti canlanmalıdır və məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə biləcək subyektlərin dairəsi genişləndirilməlidir, yəni insan hüquqlarının müdafiəsinin, Amerika sistemində olduğu kimi, Konvensiyanın iştirakçı dövlətlərinin də, bununla bağlı birbaşa Məhkəməyə, müraciət etmək hüququ təmin edilməlidir. Hesab edirik ki, iştirakçı-dövlətlərə belə hüququn təmin edilməsi AİHK-nin və məhkəmənin presedent hüququn milli səviyyədə implementasiyasında əhəmiyyətli rol oynayardı.

Avropa Məhkəməsinin yurisdiksiyası və milli hüququn qarşılıqlı əlaqəsi kontekstində subsidiarlıq prinsipinin təhlilinə dair fikirləri ümumiləşdirərək, aşağıdakıları qeyd etmək olar:

Avropa Məhkəməsi milli məhkəmələrin hökm və ya qərarlarını ləğv edə bilməz. Belə ki, o, milli məhkəmələrə münasibətdə yuxarı instansiya məhkəməsi qismində çıxış etmir. Məhkəmə dəfələrlə öz qərarlarında qeyd etmişdir ki, milli məhkəmə qərarlarının ləğv edilməsi onun səlahiyyətində deyildir. Avropa Məhkəməsi nə qədər əhəmiyyətli və nüfuzlu olsa da, bu məhkəmə milli məhkəmə sistemini əvəz etmir və heç bir halda, sonuncu instansiya məhkəməsi kimi çıxış etmir; eyni zamanda, fikrimizcə, Avropa Məhkəməsinin qərarları dövlətlər üçün, o cümlədən, konkret iş üzrə cavabdeh-dövlətin müvafiq orqanları və məhkəmə sistemi üçün hüquqi baxımdan, məcburi presedent xarakterinə malik olmalıdır və milli məhkəmələr "beynəlxalq müqavilə" anlayışını geniş şərh edərək, Avropa Məhkəməsinin presedent hüququnu da Avropa Konvensiyasının ayrılmaz tərkib hissəsi kimi qəbul etməli və hüquq tətbiqetmə praktikasında Konvensiya ilə yanaşı, Avropa Məhkəməsinin maddi hüquq normalarının şərhi əks olunan qərarlarını da birbaşa tətbiq etməlidirlər.

Z.Əliyevin fikrincə, Avropa Məhkəməsinin milli məhkəmələrə münasibətdə rolu subsidiar xarakter daşıyır. Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların müdafiəsini, ilk növbədə, dövlətlərin özləri təmin etməlidir. Məhkəmənin subsidiar xarakterini Konvensiyanın bir sıra maddələrindən də görmək olur (məsələn, 1-ci maddə, 35-ci maddənin 1-ci bəndi, 53-cü maddə və s.).

Avropa Məhkəməsi dövlətlərüstü məhkəmə deyildir. O, dövlətlərə onların qanunverici, məhkəmə və digər fəaliyyətləri ilə əlaqədar konkret göstərişlər verə bilməz. Avropa Məhkəməsi, Konvensiyanın bu və ya digər maddəsinin pozulduğunu müəyyən etdiyi halda belə, dövlətdaxili qanunvericiliyə dəyişikliklər etmək, hər hansı qanunvericilik aktını qəbul etmək və ya ləğv etmək haqqındatələb irəli sürə bilməz.

Bütün dövlətdaxili hüquq-müdafiə vasitələrinin tükənməsi şərti ilə bağlı deyilənlərə yekun olaraq, qeyd etmək olar ki, hüququnun pozulduğunu iddia edən şəxs onun bərpası üçün, ilk növbədə, milli hüquqda müəyyən edilmiş və müraciət edilməsi mümkün olan bütün daxili hüquq-müdafiə vasitələrindən istifadə etməlidir. Azərbaycanda Konvensiya anlamında daxili hüquq-müdafiə vasitələrinin tükənməsi üçün əvvəlcə I instansiya məhkəməsinə, sonra Apellyasiya Məhkəməsinə və nəhayət, Ali Məhkəməyə müraciət edilməlidir. Avropa Məhkəməsinə müraciət etmək məqsədilə Azərbaycanda dövlətdaxili hüquq-müdafiə vasitələrinin tükənməsi üçün Ali Məhkəmənin Plenumuna əlavə kassasiya qaydasında şikayət etməyə ehtiyac yoxdur. Şəxs ekstraordinar vasitələri tükəndirməyə borclu deyildir. Bu baxımdan, Ali Məhkəmənin Plenumu səmərəli müdafiə vasitəsi hesab oluna bilməz. Həmçinin, hər bir halda, Konstitusiya Məhkəməsinə müraciət edilməsi də zəruri deyildir. Belə ki, Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyətini həyata keçirən orqanlardan biri olsa da, məhkəmə sisteminə daxil deyildir. Beləliklə, əgər pozulmuş hüququn bərpası milli səviyyədə Konstitusiya Məhkəməsinin səlahiyyətləri daxilindədirsə, məsələn, hüququ pozulmuş şəxs bu pozuntunun milli qanunvericilik aktının mövcudluğu və ya ona qarşı tətbiqi ilə baş verdiyini iddia edirsə, bu halda, dövlətdaxili hüquq- müdafiə mexanizmlərinin tükəndirilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət etmək gərəkdir. Həmçinin, Avropa Məhkəməsinə müraciət etməzdən əvvəl, bütün dövlətdaxili hüquq- müdafiə mexanizmlərinin tükəndirilməsi üçün Ombudsmana müraciət etmək zəruri deyildir. Yəni məhkəmə tərəfindən Ombudsman Konvensiyasının 35-ci maddəsi baxımından, tükəndirilməsi vacib olan dövlətdaxili mexanizmlər sırasına aid edilmir.



Z.Əliyev yazır: "Hesab edirik ki, Ombudsman Təsisatı Avropa Məhkəməsi tərəfindən Konvensiyanın 35-ci maddəsinə müvafiq olaraq, tükənməli olan effektiv dövlətdaxili hüquq-müdafiə vasitəsi kimi qəbul edilməli və buna müvafiq olaraq, Avropa Məhkəməsinə ərizə axınının qarşısını almaq üçün dövlətdaxili səviyyədə bu təsisatın səlahiyyətləri artırılmalıdır (məsələn, Ombudsmana Avropa Konvensiyasının müddəaları ilə ziddiyyət təşkil edən milli məhkəmə qərarlarının ləğv edilməsi tələbi ilə çıxış etmək səlahiyyətinin verilməsi, yaxud konstitusiyanın və qanunların şərhi ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun təmin edilməsi və s.).

Nəhayət, AİHM-in qərarları ilə bağlı deyilənləri ümumiləşdirərək, aşağıdakıları qeyd etmək olar:

- Məhkəmənin qəti qərarları iş üzrə tərəf olan dövlətlər üçün məcburi xarakter daşıyır;

- Konvensiyanın maddi hüquq normaları Avropa Məhkəməsinin şərh etdiyi qaydada tətbiq edilir. Yəni milli səviyyədə hüquq tətbiq edən orqanlar Konvensiyanı Avropa Məhkəməsinin qərarlarını, şərhlərini və presedent hüququnda formalaşan məhkəmənin hüquqi mövqelərini nəzərə alaraq, tətbiq etməlidirlər."

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*





# Lənkəranda növbəti səyyar görüş keçirilib

## Görüşdə rayonun Şıxəkəran kəndinin sakinlərinin problemləri və təklifləri dinlənilib

Lənkəran rayon icra hakimiyyətinin başçısı Taleh Qaraşov bildirib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbullar qrafikinə uyğun görüşlər keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları barədə məlumat verən rayon rəhbəri, ölkəmizdə olduğu kimi, Lənkəran rayonunda da uğurlu işlərin görüldüyünü və əhalinin rifah halının daha da yaxşılaşdığını qeyd edib. Bildirib ki, dövlət başçısının regionlara, o cümlədən, Lənkəran rayonuna hər tarixi səfəri və səfər çərçivəsində vətəndaşlarla görüşü, hər bir vətəndaşa diqqət və qayğı ilə yanaşmasını bir daha sübut edir.

Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlar görülən işlərə görə dövlət başçısına minnətdarlıqlarını bildirdilər və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyəti başçısı vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirləri qeyd etdi və aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

*R.HÜSEYNOVA*

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Yenidən hazırlanma təhsilinin Dil-Ədəbiyyat müəllimliyi ixtisası üzrə 1802 qrup dinləyicisi Yaqublu Təbriz Şakir oğlunun adına verilmiş dinləyici vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlimdə Sosial-Psixoloji xidmət ixtisası üzrə 1802B qrup tələbəsi Heydərova Süraya Mütəllim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Yenidən hazırlanma təhsilinin Dil-Ədəbiyyat müəllimliyi ixtisası üzrə 1802 qrup dinləyicisi Yaqublu Təbriz Şakir oğlunun adına verilmiş dinləyici vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlimdə Sosial-Psixoloji xidmət ixtisası üzrə 1802B qrup tələbəsi Heydərova Süraya Mütəllim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# YAP Yardımlı rayon təşkilatı GB-nın hesabat konfransı keçirilib



***Yeni Azərbaycan Partiyası Yardımlı rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. İştirakçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.***




Konfransda YAP Yardımlı rayon təşkilatının sədri Mahir Mirzəyev çıxış edərək Yeni Azərbaycan Partiyasının təkcə Azərbaycanın deyil, regionun ən nəhəng və aparıcı siyasi təşkilatı olduğunu diqqətə çatdırıb. Dövlətin gənclərə qayğısından bəhs edən M.Mirzəyev Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin bu gün uğurla davam etdirildiyini bildirib: "Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə, gənclərin himayədarı olaraq, sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, onların dövlət mənafeləri əsasında səfərbər olunması üçün mühüm addımlar atıb. Sevindirici haldır ki, əsası Ümummilli Liderimiz tərəfindən qoyulan dövlət-gənclər siyasəti bu gün Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Konfransda YAP gənclər birliyinin sədri Anar Alışovun hesabat məruzəsi dinlənilib. Məruzə ətrafında GB-nin sədr müavini Əfsanə Mahmudzadə, təşkilat fəalları Ruslan Ataşlı və Şaiq Zaidli çıxış ediblər.

Konfransda Yardımlı rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov çıxış edərək, məhz Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra, qısa müddətdə, Azərbaycanın bütün potensialını bir araya gətirməsi mövcud problemlərin həllində xüsusi rol oynadığını bildirib: "O dövr Azərbaycana siyasi, iqtisadi, hərbi sahələrdə qoyulan kapital gəncliyi qorumaq, inkişaf etdirmək və gənclərin ictimai həyata inteqrasiyasını sürətləndirməyə xidmət edirdi".



YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə partiyanın yaradılmasının tarixi zərurət olduğunu bildirərək, diqqəti o zamankı siyasi vəziyyətə yönəldib: "Ulu Öndər Heydər Əliyev xalqının səsinə səs verərək, yeni bir siyasi partiyanı - Yeni Azərbaycan Partiyasını yaratdı. Sevindirici haldır ki, hazırda müasir müstəqil Azərbaycan, Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir və yeni-yeni uğurlara imza atır".

Daha sonra təşkilati məsələlərə baxılıb. YAP Yardımlı rayon təşkilatı gənclər birliyinin 21 nəfər şura və 9 nəfərdən ibarət idarə heyətinin tərkibi müəyyənləşib. Eyni zamanda, Əfsanə Mahmudzadə YAP Yardımlı rayon təşkilatı gənclər birliyinin sədri seçilib, YAP Gənclər Birliyinin növbəti Konfransına nümayəndələr də müəyyənləşdirilib.

*R.HÜSEYNOVA*

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600